QARABAĞ AZƏRBAYCANDIR!

SƏS

№ 010 (6693) 19 yanvar 2023-cü il. Qiymәti 60 qәpik




## Xalqımızın hüzn və şərəf günü

14

## İlham Əliyev: "Çin və Azərbaycan yaxşı dostlardır"



4

# Qərb "Asiya NATO-su"na qarşı




*ABŞ və Böyük Britaniya Yaponiya ilə birlikdə Çinlə qarşılaşmaq üçün NATO-nun Asiya analoqunu yaradır. Xarici mənbələrin yazdığına görə, Rusiyanın Ukrayna nümunəsi göstərdiyi kimi, bu gün ölkələr rəqibləri ilə təkbətək mübarizə aparır. Bu da Pekini təhdid edir. Bununla belə, sual qalır: ABŞ eyni vaxtda iki cəbhədə vuruşa biləcəkmi?*

## Davosda nə baş verir?




5

## Bakıda hansı ərazilərdə mənzil qiymətləri əl yandırır?



13

## "Rus sülhməramlıları elə də böyük səlahiyyətlərə malik deyillər"

*"Laçın-Xankəndi yolunda, artıq bir aydan çoxdur ki, davam edən dinc aksiya bir neçə baxış bucağından mühüm tarixi hadisə kimi qiymətləndirilməlidir.*



11




8

## Tehran, Evin həbsxanası: Allahın "duymayacağı" adlandırılan yer üzünün cəhənnəmi!

*SİTAT: "O, qıvrıldı, qışqırdı və heç kimi öldürmədiyinə and içdi... Gəncin işgəncədən sağ çıxıb-çıxmaması tezliklə məlum olacaq. Əgər o, ağır cinayət törətdiyini etiraf edərsə, o zaman onun etirafı ölkə televiziyasında göstəriləcək, sonra isə gənc həbsxananın özündə asılacaq. Edamlar üçün ayrıca korpus var*

***Yanvarın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda "The Goldman Sachs Group Inc." şirkətinin qlobal məsələlər üzrə prezidenti Cared Kohen ilə görüşüb. Görüşdə "The Goldman Sachs Group Inc." şirkətinin Azərbaycan Mərkəzi Bankı və Dövlət Neft Fondu ilə uğurlu əməkdaşlığının davam etdiyi qeyd olundu.***



# “Azərbaycan Avropanın enerji təhlükəsizliyində önəmli rol oynayır”

*Azərbaycan Prezidenti İlham Əliyev Davosda mühüm görüşlər keçirib*

”The Goldman Sachs Group Inc.” şirkəti ABŞ-ın mənzil-qərargahı Nyu-Yorkda yerləşən beynəlxalq sərmayə bankı və maliyyə xidmətləri şirkətidir. Yetmişdən çox ölkədə fəaliyyət göstərən şirkətin gəlirləri 2021-ci ildə 59,4 milyard dollar, xalis mənfəəti isə 21,6 milyard dollar təşkil edib.

Dünən Prezident İlham Əliyevin Davosda ”Kromatix SA” şirkətinin baş icraçı direktoru Rafik Hanbali ilə görüşü olub. Görüşdə ”Kromatix SA” şirkətinin fəaliyyəti və istehsal etdiyi məhsullar, o cümlədən Azərbaycanda yeni texnologiyaların tətbiqi ilə enerjinin istehsalı məsələlərindən danışıldı.

Şirkətin xüsusi texnologiya və örtüklər vasitəsilə bina fasadlarının şüşə hissələrinin günəş panelləri

## “Azərbaycanda əldə olunan nailiyyətlər böyük inkişaf proseslərinin başlanğıcıdır”





kimi istifadəsinə imkan verən texnologiyalar istehsal etdiyi bildirildi. Azərbaycanda dayanıqlı enerji təchizatına önəm verilməsi, xüsusilə işğaldan azad edilmiş ərazilərin yaşıl enerji zonası elan olunması nəzərə alınaraq, ölkəmizdə həmin texnologiyaların bina və tikintilərdə də istifadəsinə dair fikir mübadiləsi aparıldı.

Rafik Hanbali ”Kromatix SA” şirkətinin ölkəmizdə, xüsusilə Ələt Azad İqtisadi Zonasında müəssisənin yaradılması planları barədə dövlətimizin başçısına məlumat verdi. Pilot layihə kimi ”Kromatix SA” şirkətinin Cəbrayıl rayonunda məktəbin binasının üzlənməsi ilə bağlı həyata keçirməyi planlaşdırdığı layihənin önəmi qeyd edildi. Gələcəkdə bunun digər məktəblərdə də tətbiq olunmasının nəzərdə tutulduğu vurğulandı.

Dövlətimizin başçısı şirkətin Azərbaycanda planlaşdırdığı layihələri dəstəkləyərək, ölkəmizdə iqtisadi inkişaf imkanları, daxili bazara və bölgədəki digər bazarlara çıxış üçün mövcud şərait barədə məlumat verdi.



Görüşdə ”Kromatix SA” şirkəti ilə Azərbaycanın Şəhərsalma və Arxitektura Komitəsi arasında əməkdaşlığın təməlinin qoyulduğu bildirildi. Prezident İlham Əliyev ”Kromatix SA” şirkətinin rəhbərini Azərbaycana, o cümlədən işğaldan azad olunmuş ərazilərə səfərə dəvət etdi. Dəvət minnətdarlıqla qəbul olundu.

Azərbaycan Prezidenti İlham Əliyevin yanvarın 18-də Davosda ”Signify” (əvvəlki adı ”Philips Lighting”) şirkətinin baş icraçı direktoru Erik Rondolat ilə görüşü olub. Erik Rondolat dövlətimizin başçısına Azərbaycanda, o cümlədən işğaldan azad edilmiş ərazilərdə - Şuşa və Ağdam şəhərlərində həyata keçirilən layihələrin gedişatı və perspektivləri barədə məlumat verdi.

Ardı Səh. 3



# "Azərbaycan Avropanın enerji təhlükəsizliyində önəmli rol oynayır"

## *Azərbaycan Prezidenti İlham Əliyev Davosda mühüm görüşlər keçirib*



Əvvəli-Səh-2

Prezident İlham Əliyev "Signify" şirkətinin Azərbaycandakı fəaliyyətini yüksək qiymətləndirdi, Bakı, Sumqayıt, Gəncə də daxil olmaqla artıq 11-dən çox şəhərin işıqlandırma sistemlərinin ağıllı layihələr, ağıllı həllər vasitəsilə həyata keçirildiyini xüsusi qeyd etdi, bunun Azərbaycanın son illərdə yaşıl enerji siyasətinin dəstəklənməsi istiqamətində ciddi addımlarından biri olduğunu bildirdi. Qeyd edildi ki, bu yeni texnologiyalar nəticəsində elektrik enerjisi sərfinə ciddi şəkildə qənaət olunacaq.

"Signify" şirkətinin baş icraçı direktoru diqqətə çatdırdı ki, serverlər Azərbaycanda yerləşdirilməklə bütün bu şəhərlər ağıllı sistem vasitəsilə vahid mərkəzdən idarə olunacaq. Bu, Azərbaycana əlavə enerji sərfiyyatına qənaət imkanı yaradacaq.

Erik Rondolat Prezident İlham Əliyevə, eyni zamanda, Bakı şəhərində həyata keçiriləcək fasad işıqlandırılması, Şuşada teleqüllənin işıqlandırılması, aqrar sektorda reallaşdırılacaq layihələr barədə məlumat verdi. Bildirildi ki, artıq aqrar sektorda layihələrin icrasına başlanılıb. Bu, istixanalarda məhsuldarlığın iki dəfədən çox artımına gətirib çıxaracaq. Enerji sərfiyyatına ciddi şəkildə qənaət olunacaq ki, bu da biznesin dəstəklənməsi baxımından xüsusi əhəmiyyətə malikdir.

Sonda dövlətimizin başçısı bu layihələrin əhəmiyyətini qeyd etdi və "Signify" şirkəti ilə Azərbaycanın aidiyyəti qurumları arasında əməkdaşlığın davam etdirilməsinin məqsədəuyğun olduğunu vurğuladı.

Yanvarın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Davosda "Carlsberg Group" şirkətinin prezidenti və baş icraçı direktoru Kes t`Hart ilə görüşü olub. Görüşdə "Carlsberg Group" şirkətinin Azərbaycandakı fəaliyyətindən məmnunluq ifadə edildi. Azərbaycanda aparılan iqtisadi islahatların biznes mühitinə müsbət təsiri qeyd olundu. Şirkətin Azərbaycanda arpa emalını 100 faiz lokallaşdırdığı, pivə istehsalında istifadə olunan arpanın emalının lokallaşdırılmasının isə yaxın vaxtlarda 100 faizə çatdırılacağı bildirildi.

Söhbət zamanı Azərbaycanda pivə istehsalında istifadə olunan arpanı emal edəcək yeni zavodun 2024-cü ildə fəaliyyətə başlamasının və ölkəmizə yeni investisiyaların yatırılmasının nəzərdə tutulduğu vurğulandı. Kes t`Hart Azərbaycanda "Carlsberg Group" şirkətinin fəaliyyətinə verdiyi dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

Azərbaycan Prezidenti İlham Əliyevin yanvarın 18-də Davosda Litva Respublikasının Prezidenti Gitanas Nauseda ilə görüşü olub. Görüşdə Litva Prezidenti Gitanas Nauseda Azərbaycana ötənilki səfərini məmnunluqla xatırladı, səfər əsnasında ölkələrimiz arasında ikitərəfli əlaqələrin inkişafına dair Prezident İlham Əliyev ilə geniş müzakirələr apardığını qeyd etdi. Prezident Gitanas Nauseda Prezident İlham Əliyevi Litvaya səfərə dəvət etdi. Səfərə dəvəti məmnunluqla qəbul edən dövlətimizin başçısı Litva Prezidentinin Azərbaycana səfərinin ikitərəfli əlaqələrimizin inkişafı baxımından əhəmiyyətini vurğuladı.

Söhbət əsnasında regional məsələlər, Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh müqaviləsi üzrə danışıqlar prosesi, həmçinin Azərbaycan ərazisində Laçın-Xankəndi yolunda baş verən hadisələr barədə fikir mübadiləsi aparıldı.

Dövlətimizin başçısı Ermənistanın beynəlxalq ictimaiyyəti çaşdırmaq məqsədilə Laçın yolundakı hadisələrlə əlaqədar manipulyasiya ilə məşğul olduğunu və yalan məlumatlar əsasında guya yolun bağlı olduğunu iddia etdiyini dedi. Prezident İlham Əliyev yolun mülki şəxslər və mülki təyinatlı yüklərin keçidi üçün açıq olduğunu, həmçinin Beynəlxalq Qızıl Xaç Komitəsinin xətti ilə humanitar yüklərin sərbəst hərəkətinin təmin edildiyini bildirdi.

Prezident İlham Əliyev Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi ərazilərimizdə Azərbaycanın təbii sərvətlərinin qanunsuz istismarına son qoyulmasının və kriminal ünsürlərin ərazidən çıxarılmasının vacibliyini diqqətə çatdırdı. Azərbaycan Prezidenti Ermənistan tərəfinin ötən iki ildən artıq müddət ərzində Laçın yolundan minaların, silah-sursatın və şəxsi heyətin daşınması üçün istifadə etdiyini bildirdi.

Görüşdə Azərbaycan-Avropa İttifaqı əlaqələri ilə bağlı da fikir mübadiləsi aparıldı. Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin dəstəyi ilə təşkil olunan Avropa İttifaqı-Azərbaycan-Ermənistan üçtərəfli formatının Azərbaycan ilə Ermənistan arasında sülh gündəliyinin irəliyə aparılması baxımından əhəmiyyəti qeyd edildi.

Söhbət zamanı Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı önəmli rolu vurğulandı. Bu xüsusda Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında yaşıl enerjinin inkişafı və ötürülməsi ilə bağlı ötən ilin dekabrında Buxarestdə imzalanan Sazişin əhəmiyyəti qeyd edildi.

Dünən həmçinin Azərbaycan Prezidenti İlham Əliyevin Davosda BP Qrupunun baş icraçı direktoru Bernard Luni ilə görüşü olub. Görüşdə BP şirkətinin Azərbaycanda uzun müddət fəaliyyət göstərdiyi vurğulandı. Azərbaycanın enerji layihələrinin yeni mərhələyə keçidi, qaz həcminin artırılması, bərpaolunan enerji layihələrində BP şirkətinin daha fəal iştirakı, mövcud layihələrin genişləndirilməsi məsələləri müzakirə olundu. Bernard Luni uzunmüddətli strateji əməkdaşlığa görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

BP Qrupunun baş icraçı direktoru Azərbaycanda əldə olunmuş böyük nailiyyətlər və sürətli inkişaf prosesləri ilə bağlı Prezident İlham Əliyevə təbriklərini çatdırdı. Dünyada böyük maliyyə çətinliklərinə baxmayaraq, Azərbaycanın qazandığı uğurların önəmini vurğulayan Bernard Luni, eyni zamanda, azad edilmiş ərazilərdə inşaat infrastrukturu sahəsində görülən genişmiqyaslı işləri qeyd etdi. Bernard Luni əminliklə bildirdi ki, Azərbaycanda əldə olunan nailiyyətlər böyük inkişaf proseslərinin başlanğıcıdır.

# XİN: "Azərbaycan Ermənistandan sülh müqaviləsi üzrə növbəti danışıqlara razılıq verməsini gözləyir"

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəhbəri Ayxan Hacızadə yanvarın 18-də Ermənistan parlamentində sualları cavablandıran Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın "Ermənistanın bir aydır Azərbaycandan sülh müqaviləsinə təkliflərlə bağlı cavab gözlədiyini, Azərbaycan tərəfinin isə danışıqları dayandırdığını bildirməsi" ilə bağlı KİV-lərin suallarını cavablandırıb.

AZƏRTAC xəbər verir ki, A.Hacızadə bununla bağlı deyib: "Azərbaycan ilə Ermənistan arasında normallaşma prosesinin, o cümlədən sülh müqaviləsinin imzalanmasının təşəbbüskarının Azərbaycan olduğunu nəzərə alaraq, Ermənistan tərəfinin bu cür açıqlamalar verməsi təəccüb doğurur. Sülh sazişi üzrə danışıqların bir qayda olaraq Ermənistan tərəfindən təqdim olunan şəkildə aparılmadığını qarşı tərəfə bir daha xatırlatmaq istərdik.

Məlumdur ki, sülh sazişi üzrə mətn müzakirələr üçün Azərbaycan tərəfindən ötən il oktyabrın 2-də Cenevrədə təqdim edilib və sənəd üzrə müzakirələr Vaşinqtonda davam etdirilib. Danışıqlar prosesinin davamı olaraq üçüncü görüşün ötən il dekabrın 23-də Moskvada keçirilməsinə razılıq verilməsinə baxmayaraq, məhz Ermənistan tərəfi birtərəfli əsasda görüşdə iştirak etməyib, bununla da danışıqlar prosesini pozub.



Bir daha bəyan edirik ki, Azərbaycan sülh prosesinin 5 baza prinsipi əsasında sülh sazişinin imzalanmasına və sözügedən sazişin mətninin təşəbbüskarı kimi danışıqlar üzrə növbəti görüşün qısa müddət ərzində keçirilməsinə hazırdır.

Azərbaycan tərəfi Ermənistandan sülh prosesinə xələl gətirən təxribatçı açıqlamalar yox, məhz sülh müqaviləsinin mətni üzrə danışıqlar aparmaq məqsədilə növbəti görüşün keçirilməsinə razılıq verməsini gözləyir".

# İlham Əliyev: ”Çin və Azərbaycan yaxşı dostlardır”

**Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 17-də Davosda Çinin CGTN (China Global Television Network) televiziya kanalına müsahibə verib**

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 17-də Davosda Çinin CGTN (China Global Television Network) televiziya kanalına müsahibə verib. Dövlətimizin başçısı müsahibədə olduqca maraqlı məqamlar barədə fikirlərini açıqlayıb.***



Dövlətimizin başçısı qeyd edib ki, Azərbaycanda investisiya mühiti çox müsbətdir, xarici və yerli investisiyalar lazımınca qorunur: ”Ümid edirik ki, qeyri-enerji sektoruna daha çox investisiyalar olacaq, çünki ölkəmizə qoyulan sərmayələrin əksəriyyəti neft və qaz sektoruna yönəlib.”

Dövlətimizin başçısı deyib ki, indi şaxələnmə barədə düşünmək və hərəkət etmək vaxtıdır: ”Buna görə də qeyri-enerji sektoruna, infrastruktura, xüsusilə nəqliyyat infrastrukturuna, bərpa olunan enerji mənbələrinə yönəlmiş investisiyalar bizim üçün prioritetlərdən biridir. Biz indi Bakının yaxınlığında yerləşən Ələt bölgəsində azad iqtisadi zonanın açılmasının sonuncu mərhələsindəyik. Ümid edirik ki, Çin şirkətləri bu fürsətlərə diqqət yetirəcək. Əlbəttə ki, Şərq və Qərb arasında, ənənəvi ipək yolu coğrafiyasında yerləşməyimiz bizim üçün çoxlu imkanlar yaradır”.



## İlham Əliyev: "Bizim siyasətimiz hər zaman əməkdaşlığa əsaslanıb"

Açıq dənizə çıxışı olmayan Azərbaycanın beynəlxalq, logistik və nəqliyyat mərkəzinə çevrildiyini qeyd edən dövlətimizin başçısı deyib: ”Həmçinin ”Bir kəmər, bir yol” təşəbbüsü müxtəlif marşrutlar, xüsusilə Şimal-Cənub marşrutu üzrə daşımanı fəallaşdırdı. İndi isə biz Şimal-Qərb marşrutu haqqında da danışırıq. Bu, uğurla inkişaf edən qlobal layihədir. Marşrut üzərində yerləşən bütün ölkələr artıq bunun faydasını görürlər. Əlbəttə ki, nəqliyyat layihələrinə necə münasibət göstərməsi ölkələrin strategiyasından asılıdır. Bizim üçün bu, iqtisadiyyatımızı şaxələndirmək və neft-qaz gəlirlərindən asılılığımızı azaltmaq üçün əsas amillərdən biri idi. Biz əsasən dəmir yolu infrastrukturuna investisiya yatırdıq və bunu təkcə Azərbaycanda yox, regionda da etdik. İndi isə biz bu dəmir yolunu Bakıdan qərb istiqamətində genişləndirmək üçün əlavə sərmayə yatırırıq. Biz bütün digər layihələri - avtomagistrallar, hava limanları kimi layihələri də həyata keçirmişik”.

## "Azərbaycan pandemiya dövründə 80-dən çox ölkəyə tibbi, humanitar və maliyyə dəstəyi göstərib"

Prezident İlham Əliyev qeyd edib ki, Çin və Azərbaycan yaxşı dostlardır: ”Mənim Sədr Si Cinpinlə dəfələrlə görüşmək imkanım olub. Sonuncu dəfə bir neçə ay bundan öncə bizim çox yaxşı görüşümüz olub. Bizim gələcək əməkdaşlığımız haqqında çox məhsuldar müzakirələrimiz oldu. ”Bir kəmər, bir yol” sammiti çərçivəsində Pekində Sədr Si Cinpinlə görüşüm zamanı o məni Çinin böyük dostu adlandırdı. Bu mənim üçün böyük şərəf idi. Biz Çinlə əməkdaşlıq portfelimizə yaşıl enerji sahəsində əməkdaşlığı əlavə etmək istəyirik. Çünki Azərbaycanda böyük potensial var və Çində böyük texnoloji nailiyyətlər mövcuddur. Biz bu səyləri birləşdirməliyik.

”Bizim prioritetlərə gəldikdə, bərpaolunan enerji mənbələri bizim üçün indi əsas prioritetlərdən birinə çevrilib. Son bir neçə ay ərzində biz 22 qiqavat bərpaolunan enerji mənbələrini yaratmaq üçün sərmayə təmin edəcək sənədlər imzalamışıq. Söhbət həm dənizdən, həm də qurudan gedir. Bu isə regional iqtisadi konfiqurasiyanı tamamilə dəyişəcək”, - deyə dövlətimizin başçısı bildirib.

Prezident İlham Əliyev deyib ki, bunun təkcə bizim ölkə üçün yox, həm də bütün region üçün çox böyük potensialı var: ”Biz ixrac etmək imkanına malik olmaq üçün həm də ötürücü xətlərə də sərmayə yatırmalıyıq, çünki bizim özümüzə bu qədər enerji lazım deyil”.

”Siyasi həyatımda heç vaxt olmayıb ki, mən söz verim və arxasında dayanmayım. Verdiyim bütün sözlər yerinə yetirilib. Digər tərəfdən, mən çox söz vermirəm, çünki nəticəni nümayiş etdirməyi üstün tuturam.”

## "Azərbaycanın hədəfi Avropa bazarına qaz ixracını iki dəfə artırmaqdır"

Bu barədə Prezident İlham Əliyev Çinin CGTN telekanalına müsahibəsində bildirib. ”Biz yalan vədlərə əsaslanan çox sayda siyasi və ya seçki kampaniyaları görmüşük. Lakin bu, uğura gətirib çıxarmayıb, uğur yalnız müvəqqəti olub. Çünki insanlar hər şeyi çox yaxşı başa düşürlər. Onlar yadda saxlayırlar. Əgər siz vəd verib yerinə yetirməmisinizsə onlar sizi dəstəkləməyəcəklər. Mən hər zaman görülmüş işi nümayiş etdirməyi üstün tuturam və hər zaman planlarımızla bağlı insanlarla məsləhətləşirəm. Mənim Azərbaycan cəmiyyəti ilə çox açıq kommunikasiya kanalım var.

Düşünürəm ki, bəzi ölkələrin ambisiyaları, regionda və ya dünyada bir növ liderlik uğrunda mübarizə, potensialın düzgün hesablanmaması, opponentinizin olduğundan aşağı qiymətləndirilməsi əməkdaşlığı çətinləşdirir”.

Bunun etimadsızlığa, gərginliyə və müharibələrə gətirib çıxardığını qeyd edən dövlətimizin başçısı deyib: ”Bizim siyasətimiz hər zaman, sözün əsl mənasında, əməkdaşlığa əsaslanıb, çünki biz qəti surətdə inanırıq ki, yalnız əməkdaşlıq sayəsində uğur qazana bilərsiniz. Nə qədər çox versəniz, nə qədər çox yardım etsəniz, bir o qədər çox əldə edəcəksiniz. Dünya bunun üzərində qurulub”.

Azərbaycan Prezidenti daha sonra qeyd edib ki, bizim Avropaya kəmərimiz enerji təhlükəsizliyinə töhfənin elementlərindən biridir: ”Biz komanda işini qurmağa nail olduq. İndi - bütün bu infrastruktur layihələrinin hazır olduğu bir vaxtda belə alındı ki, bizim qazımıza indiyədək olduğundan daha çox ehtiyac var. Bizim Avropaya kəmərimiz enerji təhlükəsizliyinə töhfənin elementlərindən biridir.”

Dövlətimizin başçısı deyib: ”Ötən il biz Avropa bazarına qaz ixracını iki dəfə artırmaq üçün Avropa Komissiyası ilə sənəd imzaladıq. Biz 5 il ərzində bu hədəfə nail olacağıq, bu, mümkündür, baxmayaraq ki, asan olmayacaq. Azərbaycan sözsüz ki, təbii qazın çox böyük təchizatçısı deyil, lakin bizim Şərqi və Cənubi Avropada bazarımız var və gələcəkdə daha çox qaz hasil etdikcə, coğrafiyamızı genişləndirəcəyik”.

Prezident İlham Əliyev Çinin CGTN telekanalına müsahibəsində bildirib ki, Azərbaycan pandemiya dövründə 80-dən artıq ölkəyə tibbi, humanitar və maliyyə dəstəyi göstərib. Biz bunu könüllü olaraq, hər hansı təmənna güdmədən etdik. Biz, sadəcə, hesab etdik ki, bizim belə imkanımız varsa, bunu etməliyik.

”1990-cı illərin əvvəllərində elə dönəm var idi ki, ölkəmizin köməyə ehtiyacı olub. O zaman ölkəmiz yoxsul idi və bir çox sosial problemlərlə üzləşmişdi. Yəni, biz kasıblığın nə olduğunu yaxşı bildiyimiz üçün kömək əlimizi uzatdıq. Bu ideologiya üstünlük təşkil etsə, dünya daha təhlükəsiz olar”, - deyə dövlətimizin başçısı vurğulayıb.

Prezident İlham Əliyev qeyd edib ki, bu gün dünyanın üzləşdiyi əsas problemin legitim mənbəyi yoxdur, bunlar, sadəcə, baxışlar, ambisiyalar və virtual liderlik uğrunda mübarizə ilə bağlıdır.




# Davosda nə baş verir?

## *Şirkətlər tənəzzülə hazırlaşır*

***Davosda keçirilən Dünya İqtisadi Forumunun iştirakçıları bu il qlobal tənəzzül təhlükəsi barədə xəbərdarlıq ediblər. Ekspertlər üç əsas riski - inflyasiya, makroiqtisadi qeyri-sabitlik və geosiyasi münaqişə adlandırıblar. Dünya İqtisadi Forumunun illik iclası Davosda korporativ rəhbərlər və iqtisadçıların bu il qlobal tənəzzül təhlükəsi barədə xəbərdarlıqları ilə başlayıb.***

Ötən ilin oktyabr və noyabr aylarında PricewaterhouseCoopers tərəfindən sorğuda iştirak edən 4410 biznes liderinin 73%-i qlobal inkişafın növbəti 12 ay ərzində yavaşlayacağını proqnozlaşdırıb. Göstərici tarixdə ən pis göstərici idi (konsaltinq şirkəti ilk dəfə 2011-ci ildə sorğu keçirmişdi). Beş respondentdən ikisi hətta şirkətlərinin on il fəaliyyət göstərə bilməyəcəyindən narahat olduğunu bildirib.

Forum tərəfindən yayımlanan baş iqtisadçıların ayrıca sorğusu göstərib ki, şirkətlərin üçdə ikisini 2023-cü ildə qlobal tənəzzül gözləyir, çünki bizneslər xərcləri azaldır; 18% belə bir halı "son dərəcə ehtimal" hesab edir. 2700-dən çox rəhbər, bankir və iqtisadçının 2020-ci ildən bəri ilk dəfə İsveçrənin Davos xizək kurortunda bir araya gəlməsi ilə qorxuların bu həftə daha da güclənəcəyi gözlənilir. Son məlumatlar iqtisadiyyatın hələ də yumşaq eniş edə biləcəyinə dair ümidləri artırsa da, keçən ilki inflyasiya artımı və mərkəzi bankların faiz dərəcələrində sonrakı artımları bir çoxları geriləmə üçün hazırlayıb.

PWC-nin sədri Bob Moritz şirkətin sorğusunda narahatlıq səviyyəsinin şişirdilmiş olduğunu söyləyib. Onun sözlərinə görə, yavaşlama gözləntiləri proqnozlarda kök salıb, çünki insanlar bunu çoxdan gözləyirdilər. 2008-ci il maliyyə böhranı ilə müqayisədə indi şirkət rəhbərləri iqtisadiyyat üçün daha çox qorxurlar, lakin şirkətlərinin "bu tənəzzüldən" çıxacağına daha çox əmindirlər.

Buna baxmayaraq, biznes liderlərinin öz şirkətlərinin inkişaf perspektivlərinə inamı 2008-ci il böhranından sonra çox azalıb. Araşdırma nəticəsində məlum olub ki, bu il üç əsas risk inflyasiya, makroiqtisadi qeyri-sabitlik və geosiyasi münaqişədir.

Moritz qeyd edib ki, əsas sürpriz uzunmüddətli perspektivlər olub: liderlərin 40%-i əmindir ki, "onların təşkilatları transformasiya etməsələr qarşıdakı 10 il ərzində iqtisadi cəhətdən səmərəli olmayacaqlar". Moritz deyib: "Qısa müddətdə xərcləri necə idarə etmək olar, lakin uzunmüddətli perspektivdə tədarük zəncirləri, iqlim, texnoloji pozulmalar haqqındadır". Rəhbərlər "iki il yaşamaq və növbəti 10 ildə inkişaf etmək" üçün indi hərəkətə keçməlidirlər və eyni zamanda gələcəkdə istifadə etmək üçün kapitala sahib olmalıdırlar.

Ötən il biznes liderləri kibertəhlükələrdən, sağlamlıq və iqlim risklərindən narahat olublar. Moritz bildirib ki, iqlim böhranı aktual problem olaraq qalır. "Bu məsələnin gündəmdən düşəcəyini düşünmürəm. Hər şey nisbidir - liderlərin 60-70%-i artıq hərəkətə keçib".

Geosiyasi təhlükələr təkcə Rusiya və Çinlə məhdudlaşmır. Bəs Yaxın Şərq və İranın rolu? Hətta ABŞ-ın İnflyasiyanın Azaldılması Aktı da potensial riskdir. Təmiz enerji layihələri üçün yüz milyardlarla dollarlıq qanun subsidiyaları Avropada geosiyasi gərginliyə səbəb olur.

İşçi heyəti baxımından rəhbər işçilərin 60%-nin işçilərin sayını azaltmaq planları yoxdur və 80%-i əmək haqqını azaltmayacaq, çünki onlar bahalı işə qəbul proseslərinə xərcləməkdənsə, işçi heyətini saxlamağa üstünlük verirlər. Bu il də kadr çatışmazlığının yüksək olacağı gözlənilir.

Fransa, Almaniya və Böyük Britaniyadakı biznes sahibləri daxili artıma qlobal genişlənmələrdən daha az optimistdirlər. Bununla belə, Böyük Britaniya biznes üçün bir yer kimi mövqeyini yaxşılaşdırdı, korporativ rəhbərlər ABŞ və Çindən sonra gəlir artımı baxımından üçüncü yeri tutdular və Almaniya ilə bağlandılar. O, əvvəllər heç vaxt dördüncü yerdən yuxarı qalxmamışdı.

**VƏLİ**

# Fənn olimpiadalarda yüksək nəticə göstərənlərə dövlət necə dəstək olur?

***Olimpiadalar şagirdlər, xüsusilə yuxarı siniflər üçün böyük əhəmiyyət kəsb edir. Sirr deyil ki, onlara ali təhsil müəssisələrinə qəbul zamanı müəyyən güzəştlərdən istifadə etməyə imkan yaradır. Təbii ki, bu cür güzəştlər olimpiadaların qaliblərinə və digər mükafatlar qazananlara verilir. Olimpiadaların faydaların bir neçə növü və variantları var. Belə tələbələr, ilk növbədə, dövlət imtahansız qəbul siyahılarına salınır.***

Ancaq təkcə bunu olimpiadaların müsbət keyfiyyətləri adlandırmaq olmaz. Belə ki, ildən-ilə olimpiadalarda nə qədər çox məktəbli iştirak edirsə, bu və ya digər elm bir o qədər populyarlaşır. Yəni olimpiadalar ölkədə elmlərin təbliğinə və inkişafına öz töhfəsini verir. Elmi potensialı artırır, elmlərə yeni professorlar verirlər. Çox vaxt olimpiadalarda iştirak edənlər bu sahəyə maraq göstərməkdə, təhsil almaqda və məşhur alim olmaqda davam edirlər. və olimpiadaların keçirildiyi fənlərin müxtəlifliyi yalnız yaxşılığa doğrudur. Beləliklə, riyaziyyat, tarix, kimya, fizika kimi mühüm elmlər inkişaf edir...




Olimpiadaların daha bir üstünlüyü ondan ibarətdir ki, onlar ölkənin imicini yüksəltməyə kömək edir. Bu, xüsusilə beynəlxalq olimpiadalara aiddir, burada tələbələr bir çox başqa ölkələrdən olan uşaqlarla yarışırlar. Onların qələbələri təmsil etdikləri ölkənin nüfuzunu artırır. Bu, digər ölkələrə yerli təhsil sisteminin üstünlüklərini göstərir, burada ağıllı uşaqların yaşadığını aydınlaşdırır. İştirakçıların özləri bunun üçün yaxşı mükafatlar aldığını, həmçinin müxtəlif ölkələrə səfər etmək imkanının olduğunu qeyd etməmək olmaz.

### Ölkəmiz fənn olimpiadalarında qalib olan şagirdlərə necə dəstək göstərir?

Olimpiadaların mühüm üstünlüyü, əlbəttə ki, iştirakçıların aldıqları mükafatlardır. Onlar həm qaliblərə, həm də mükafat qazananlara verilir. Təbii ki, bu özünə inamı artırır, daha da yaxşı oxumağa, olimpiadalarda təkrar-təkrar iştirak etməyə stimul verir. Pul mükafatları ilə yanaşı, iştirakçılar öz qabiliyyətlərini inkişaf etdirmək üçün digər mükafatlar, müxtəlif sertifikatlar və ya qrantlar da alırlar.

Təbii ki, olimpiadalarda iştirak etmək üçün müəyyən səviyyədə biliyə malik olmaq və daim məşq etmək lazımdır. Hazırlıq yüksək səviyyədə olmalıdır. Səbir və qətiyyət də vacibdir. Üstəlik, uşaq yetkinlik dövründə mütləq ehtiyac duyacağı keyfiyyətləri inkişaf etdirir. Ona görə də məktəblərdə olimpiadalar keçirilməyə davam edəcək, onlar tarixə düşə bilməyəcəklər, çünki onlardan çoxlu fayda var.

Qeyd edək ki, Respublika fənn olimpiadalarında iştirak üçün elektron qaydada qeydiyyat noyabrın 11-də saat 11:00-dan prosesinə start verilib.

2022-2023-cü tədris ili üçün Respublika fənn olimpiadalarında edilən əsas dəyişiklik IX, X və XI siniflərlə yanaşı, VIII sinif şagirdlərinin də olimpiadada iştiraklarının təmin edilməsidir. Respublika fənn olimpiadaları riyaziyyat, fizika, kimya, biologiya, informatika, Azərbaycan dili və ədəbiyyat, coğrafiya və tarix olmaqla 8 fənn üzrə keçirilir.

Respublika fənn olimpiadaları "Kapital Bank" ilə əməkdaşlıq əsasında həyata keçirilir.

Olmiadada Respublika üzrə Riyaziyyat fənnindən birinci yer tutmuş Zəngilan rayon 29 nömrəli məktəb şagirdi Nəsirli Əli:"Yarımfinalda birinci olduğum üçün inanırdım ki, finalda da birinci olacam. Çox çalışırdım, Təhsil Nazirliyinin tabeliyində liseylərə imtahansız qəbul almışam. Həmçinin Təhsil Nazirliyinin təşkil etdiyi pulsuz olimpiada dərslərində iştirak edirəm. İstəyirəm mənə şərait yaratsınlar ki, xarici ölkələrdə dövlətimizi layiqincə təmsil edim. Dünyanın ən yaxşı universitetlərinin birində təhsil almaq istəyirəm".

ARAŞDIRMA

Elm və təhsil üzrə ekspert Səbuhi Abdullayev: "Respublika fənn olimpiadalarında qalib olanlara yalnız yerli universitetlərdə müsabiqədən kənar qəbulla bağlı Nazirlər Kabinetinin müvafiq fərmanı var. İxtisaslara görə ödənişsiz şəkildə müsabiqədən kənar qəbul olunur. Eyni zamanda, Beynəlxalq müsabiqələrdə olimpiyadada qalib olmuş şagirdlərə də 5 il müddətində istədikləri ixtisas üzrə 1 dəfə aid olmaqla yerli universitetlərə qəbul ilə bağlı dəstək verilir. Ancaq xarici universitetlərlə bağlı xüsusi qərar yoxdur. Bu, təəssüf doğuran bir haldır. Artıq hər il görürük ki, ölkə başçısı olimpiyada və müxtəlif müsabiqələrdə yer tutmuş idmançılarla görüş zamanı onlara dəstək olur, mükafatlar təqdim edir. Ancaq elm təhsil sahəsində qalib olanlar üçün dövlət tərəfindən xüsusi dəstək yoxdur. Eyni zamanda, Elm və İctimai Birliyin sədriyəm və bu məsələni bir neçə dəfə qaldırmışam. Bu mövzunu Təhsil Nazirliyinin qarşısında da, eyni zamanda, Gənclər və İdman Nazirliyinin qarşısında da birbaşa qabartmışıq. Gənclərimizin xaricə olimpiadalara keçən zaman, hətta yol xərclərini də özləri çəkirlər. Ancaq digər olimpiadalara gedən zaman onların yol xərci, qalacaq yerlərin ödənişini dövlət edir. Bununla bağlı müəyyən iradları bildirmişik və cəmiyyət olaraq daha da işıqlandırsaq inanırıq ki, hədəfə çatmış olarıq".

**Havar Şəfiyeva**

# AZƏRBAYCAN-İTALİYA ƏLAQƏLƏRİ - ÖRNƏK TƏRƏFDAŞLAR



*"Bu gün sirr deyil ki, Azərbaycan dünyada çox etibarlı və ciddi tərəfdaş kimi tanınır. Azərbaycan o ölkələrdəndir ki, öz sözünü açıq deyir, müstəqil siyasət aparır. Əlbəttə ki, bunun təməlində həm hərbi gücümüz, həm də şanlı Qələbəmiz dayanır. Çünki mən bunun canlı şahidiyəm ki, müharibədən sonra onsuz da Azərbaycan siyasətinə olan müsbət münasibət daha da artdı, yəni, bizə olan rəğbət daha da artdı.*

Çünki dünyanın siyasi elitası yaxşı başa düşür ki, biz bu Qələbəni nəyin bahasına əldə etdik, hansı risklərə getdik, hansı qüvvələrlə mübarizə aparırdıq və bu gün də aparırıq. Yəni, müharibə bitsə də, mübarizə hələ davam edir və əminəm ki, biz qalib gələcəyik. Çünki biz haqq yolundayıq və bizim həm hərbi, həm siyasi gücümüz, o cümlədən iqtisadi müstəqilliyimiz gücümüzü əlbəttə ki, artırır". Bəli, dövlət başçımızın dəfələrlə söylədiyi kimi, bu gün sirr deyil ki, Azərbaycan dünyada çox etibarlı və ciddi tərəfdaş kimi tanınır. Elə yanvar ayının 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İtaliya Respublikasının müdafiə naziri Quido Krosettonu qəbul edərkən strateji tərəfdaşlığa əsaslanan Azərbaycan-İtaliya ikitərəfli münasibətlərinin uğurla inkişaf etdiyini bildirərək, bu baxımdan yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini vurğulayıb, özünün İtaliyaya son səfərini məmnunluqla qeyd etdi. Dövlətimizin başçısı İtaliya Respublikası Nazirlər Şurasının yeni Sədri Ciorcia Meloniyə təbrik məktubu göndərdiyini xatırlayaraq, yeni hökumətin formalaşmasından qısa müddət keçməsinə baxmayaraq, müdafiə naziri səviyyəsində ölkəmizə səfərin həyata keçirilməsinin əlaqələrimizin yaxşı göstəricisi olduğunu qeyd edib və əminliyini bildirib ki, yeni hökumətlə Azərbaycan arasında əməkdaşlıq uğurlu olacaq. Romanın tarixi rayonunda Azərbaycan səfirliyinin yeni binasının açılışında ilk tədbirin ADA Universiteti ilə İtaliyanın beş aparıcı ali təhsil müəssisəsi arasında akademik əməkdaşlığa dair imzalanmış sazişlərin mübadiləsi mərasiminə həsr olunduğunu xatırladan Prezident İlham Əliyev İtaliya-Azərbaycan Universitetinin Azərbaycandakı binasının inşasının yekunlaşmaq üzrə olduğunu deyib.





### PREZİDENT İLHAM ƏLİYEV AZƏRBAYCAN-NATO VƏ AZƏRBAYCAN-AVROPA İTTİFAQI ƏLAQƏLƏRİNİN GENİŞLƏNMƏSİNDƏ İTALİYANIN VERDİYİ TÖHFƏNİ YÜKSƏK QİYMƏTLƏNDİRİB

Dövlətimizin başçısı Azərbaycan-NATO və Azərbaycan-Avropa İttifaqı əlaqələrinin genişlənməsində İtaliyanın verdiyi töhfəni yüksək qiymətləndirərək qeyd edərək bildirib ki, ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən energetika sahəsində uğurlu əməkdaşlıq aparılır. Azərbaycan Prezidenti bu baxımdan Cənub Qaz Dəhlizinin səmərəli fəaliyyətini vurğulayıb. Prezident İlham Əliyev Quido Krosettonun Azərbaycana səfərinin həm ölkələrimizin aidiyyəti qurumları arasında, həm də daha geniş mənada əməkdaşlığın möhkəmlənməsi işinə xidmət edəcəyinə əminliyini bildirdi, ikitərəfli münasibətlərimizin bundan sonra da möhkəmlənəcəyinə ümidvarlığını ifadə etdi.

### QUİDO KROSETTO: "SƏFƏRDƏN ÖNCƏ SERCİO MATTARELLA AZƏRBAYCAN PREZİDENTİ İLƏ DOSTLUQ ƏLAQƏLƏRİNİN MÖVCUDLUĞUNU BİR DAHA VURĞULAYIB"

Prezident İlham Əliyev ilə görüşdən şərəf duyduğunu bildirən Quido Krosetto, ilk növbədə, İtaliya Prezidenti Sercio Mattarellanın salamlarını dövlətimizin başçısına çatdırıb və qeyd edib ki, səfərdən öncə İtaliya Prezidenti ilə görüşü zamanı Sercio Mattarella özünün Azərbaycana, dövlətimizin başçısının isə İtaliyaya səfərini məmnunluqla xatırlayıb və Azərbaycan Prezidenti ilə dostluq əlaqələrinin mövcudluğunu bir daha vurğulayıb. Quido Krosetto, həmçinin Bakıda gedən inkişaf proseslərinin onlarda dərin təəssürat hissi yaratdığını deyib. Söhbət zamanı energetika, inşaat, turizm, kənd təsərrüfatı, müdafiə sənayesi və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı perspektivlərin olduğu bildirildi. Dövlətimizin başçısı salamlara və xoş sözlərə görə minnətdarlığını bildirib, onun da salamlarını İtaliya Prezidentinə çatdırmağı xahiş edib.

### 2020-Cİ İL FEVRALIN 20-DƏ AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İTALİYAYA SƏFƏRİ ÖLKƏLƏR ARASINDA ƏLAQƏLƏRİN YÜKSƏK SƏVİYYƏDƏ OLDUĞUNU TƏSDİQLƏYİR

Bu gün Azərbaycanla İtaliya arasında əlaqələrin daha uğurlu olması, məhz Azərbaycan Prezidenti İlham Əliyevin xarici siyasətinin uğurudur. Azərbaycanla İtaliya arasında əlaqələrin yüz ildən artıq yaşı var. Xalq Cümhuriyyəti dövründə Azərbaycanın mandatı bu ölkəyə verilmişdi. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra da iki ölkə arasında iqtisadi-siyasi əlaqələr inkişaf edib. 2020-ci il fevralın 20-də Azərbaycan Prezidenti İlham Əliyevin İtaliyaya səfəri ölkələr arasında əlaqələrin yüksək səviyyədə olduğunu təsdiqləyir. Səfər zamanı Romada "Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında Çoxölçülü Strateji Tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə" imzalanıb. Bu sənədə əsasən, ölkələr arasında münasibət, çoxsaylı biznes anlaşmaları nəinki neft-qaz sektorunda, eləcə də iqtisadiyyatın başqa sahələri üzrə əməkdaşlığın genişləndirilməsinə təkan verəcək, Azərbaycanın sənaye, kənd təsərrüfatı, infrastruktur, turizm, nəqliyyat-logistika və digər sahələrinə yatırılan italyan sərmayələrini artıracaq. Və çoxölçülü tərəfdaşlıq gələcəyə yönəlmiş, qlobal və regional proseslərə, problemlərə ümumi baxış, habelə tərəflərin mövcud maraq və nüfuz dairəsinə düşən bölgələrdə sülh, sabitlik və rifahı inkişaf etdirmək üçün ortaq bir hədəfə istiqamətlənən əməkdaşlıqdır. Məhz bu baxımdan Azərbaycan və İtaliya arasında imzalanan sənəd tərəflər arasında qarşılıqlı maraqların, qlobal və regional təhlükəsizliyin təmin edilməsi, əməkdaşlığın, əlaqələrin inkişafı baxımından çox əhəmiyyətli sayılır. Prezident İlham Əliyevin səfəri zamanı imzalanmış 25-dən çox sənəddə də bu kimi məsələlər öz əksini tapmışdır. İki ölkə arasında münasibətlərin sosial-mədəni sahədə inkişafı da diqqətəlayiqdir.

Bir sözlə, bu gün Azərbaycan beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınır. Bütün bunlar bir daha təsdiqləyir ki, Prezident İlham Əliyevin milli maraqlarımıza əsaslanan siyasəti dövlətimizi yalnız uğurlar qazandırır. Bu gün dünyanı narahat edən qlobal problemlərin həllində Azərbaycanın mövqeyi nəzərə alınır. Bu da, ilk növbədə, Azərbaycan Prezidentinin uğurlu daxili və xarici siyasətinin məntiqi ifadəsidir. Dövlət başçımızın söylədiyi kimi, bu gün sirr deyil ki, Azərbaycan dünyada çox etibarlı və ciddi tərəfdaş kimi tanınır.

**RƏFİQƏ HÜSEYNOVA**

# Birləşmiş Ərəb Əmirliklərinə səfərin əhəmiyyəti və GÖZLƏNTİLƏR



*Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın dəvəti ilə yanvarın 15-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfər etməsi, yanvarın 16-da Birləşmiş Ərəb Əmirliklərinin paytaxtında Əbu-Dabi Dayanıqlılıq Həftəsinin rəsmi açılış mərasimində iştirakı diqqəti cəlb etməyə bilməz və sözsüz ki, bir sıra məqamlardan xəbər verir. Ölkə rəhbərinin bu səfəri həm siyasi, həm də iqtisadi baxımdan xüsusilə böyük əhəmiyyət kəsb edir. Ələlxüsus son hadisələr fonunda bu görüşün əhəmiyyətini etiraf etməmək mümkün deyil.*




İlk olaraq onu vurğulamaq lazımdır ki, mövcud şəraitdə ölkə rəhbərimizin Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfər etməsi hər şeydən əvvəl siyasi baxımdan çox təqdirəlayiqdir. Qonşu dövlət olan İranın Azərbaycanla, Türkiyə ilə bağlı məqamlara qeyri-dost yanaşması fonunda bu səfərin özəlliyi diqqətdən yayına bilməz. Xüsusən də, İranın təkcə Azərbaycanı, Türkiyəni deyil, Birləşmiş Ərəb Əmirliklərini də, bu ölkənin siyasətini də həzm edə bilməməsi onu deməyə əsas verir ki, rəsmi Tehranın siyasəti hal-hazırda bölgə dövlətlərini narahat etməyə bilməz və bu dövlətlərin birliyi bu baxımdan xüsusilə qaçılmazdır. Elə Azərbaycan Prezidenti cənab İlham Əliyevin dəfəri bu mənada olduqca yüksək qiymətləndirilir və politoloqların, siyasətmilərin bu səfərin əhəmiyyəti barədə hələ bundan sonra müvafiq rəylər və şərhlər verəcəyi zərrə qədər şübhə doğurmur.

Son zamanlar Türkiyə-İsrail münasibətlərinin normallaşması rəsmi Tehranın kürkünə birə salıb, amma bu o demək deyil ki, adıçəkilən iki ölkə İrana görə münasibətlərini yaxşılaşdırmamalıdır. İran hesab edir ki, özünə düşmən saydığı İsraillə münasibətlər yaradan hərhansı ölkə onun düşmənidir. Məsələ burasındadır ki, Tehranın bu yanaşmasına məhəl qoyan yoxdur. Elə Birləşmiş Ərəb Əmirliklərinin özünün də İsraillə münasibətləri normallaşdırmaq məqsədi ilə müvafiq addımlar atması təsdir edir ki, BƏƏ özü də İranın nə düşündüyünü, vəziyyətə neçə yanaşdığını, nə qiymət verdiyini hesaba belə almır və öz münasibətlərində israrlıdır. Ona görə israrlıdır ki, hər şeydən öncə, bölgədə vəziyyətin normallaşdırılmasına maraqlıdır, İranın istəklərinin, arzularının yerinə yetirilməsinə yox.

Təkzib edilə bilməz ki, bütün bu münasibətlərin qurulması, normallaşdırılması, inkişaf etdirilməsi fonunda bölgədə yeni əməkdaşlıq imkanları yaranır. Bunun nəyi pisdir və nəyə görə ölkələr İrana görə münasibətlərini normallaşdırmamalıdırlar? Əksinə, belə bir şəraitdə, özü də İranın pozucu niyyəti və siyasətinə görə münasibətlərin normallaşdırılması xüsusi önəm kəsb edir. Hazırda sadalanan dövlətlərin hər birinin münasibətləri normallaşdırmaq niyyəti və bu istiqamətdə atdığı addımlar müsbət tendensiya hesab olunur ki, bunu da hər kəs yüksək qiymətləndirir, baxmayaraq ki, İran bundan qıcıqlanır. Heç şübhəsiz ki, Birləşmiş Ərəb Əmirliklərinin İranın özünə düşmən saydığı ölkə ilə münasibətləri fonunda Tehran BƏƏ-ni də özünə rəqib hesab etdiyi kimi, həmin ölkə ilə, yəni, BƏƏ ilə münasibətləri daha da yaxşılaşdıran Azərbaycana da düşmən gözü ilə baxır, amma buna nə məhəl qoyulur, nə də bu məsələ hesaba alınır, heç alınmamalıdır da. Əslində, ölkələr arasındakı bu son münasibətlər təhlükəsizliyin təmin edilməsi baxımından olduqca vacibdir və bunu təkzib etmək İranın axmaq yanaşmasından başqa bir şey sayıla bilməz. Bu gün bölgənin gələcəyini düşünən dövlətlər hər şeyi nəzərə almalıdırlar və nəzərə də alırlar. Həmin dövlətlər bilirlər ki, bölgənin gələcəyini düşünməyin bir yolu var və o da sıx əməkdaşlıqdan keçir. Azərbaycan da bu əməkdaşlığı uğurla icra edir və bu tendensiya ölkəmiz üçün də əhəmiyyətli hesab olunur, İranın, yaxud hansısa dövlətin xoşuna gəlsə də gəlməsə də.

Bəli, İranı narahat edən məqamlardan biri də odur ki, son dövrlər Azərbaycan ərəb ölkələri ilə əlaqələrin daha da inkişaf etdirilməsinə çalışır, bu istiqamətdə mühüm addımlar atır. Təbii ki, bu əlaqələrin daha da yaxşılaşdırılmasına, inkişaf etdirilməsinə ciddi ehtiyac olduğunu nəinki Azərbaycan, digər ölkələr, lap elə İran özü də yaxşı bilir. Yaxşı bilir ki, bu məsələ təxirəsalınmaz məsələdir və bu gün Azərbaycanla Birləşmiş Ərəb Əmirlikləri arasında əməkdaşlığın bütün sahələrdə ən yüksək səviyyədə olması heç də təsadüfi deyil. Dövlət qurumları arasında 30-a yaxın sənədin imzalanması özü də müəyyən məqamlara aydınlıq gətirmək üçün kifayət edir. Bunu dərk edən Tehranın narahatlığını başa düşməmək mümkün deyil, amma bu heç də əsas vermir ki, Birləşmiş Ərəb Əmirlikləri ilə münasibətlərin daha da yaxşılaşdırılması və inkişaf etdirilməsi əngəllənsin.

Birləşmiş Ərəb Əmirlikləri ölkəmizə qarşı hər zaman dost münasibəti sərgiləyib. Eyni zamanda Azərbaycan da öz növbəsində BƏƏ üçün dost münasibəti göstərib. Bilirik ki, beynəlxalq platformalarda hər iki dövlət bir-birinə hər məqamda yüksək dəstək göstərib və bunu da nümayiş etdirib. Bütün dünya ölkələrinin əksəriyyəti ən azından müşahidəçi mövqedə olduğu zaman Birləşmiş Ərəb Əmirlikləri Azərbaycanın haqlı mövqeyini dəstəkləyən dövlət olaraq çıxış edib. Bu baxımdan Azərbaycanın Birləşmiş Ərəb Əmirlikləri ilə münasibətlərini daha da yaxşılaşdırmasında qeyri-adi heç nə yoxdur və buna nəinki İran, ümumiyyətlə heç bir dövlət nə qarışa, nə də qıcıq nümayiş etdirə bilməz və buna haqqı da çatmır. Azərbaycan müstəqil, suveren dövlətdir və özünün strateji xətti də var və buna müvafiq olaraq əlaqələrini milli maraqları çərçivəsində hər zaman qurmağa hazırdır. Elə bu rakursda da ölkəmizin Birləşmiş Ərəb Əmirlikləri ilə əlaqələrini yaxşılaşdırması hər mənada, həm siyasi məsləhətləşmələrin aparılması, həm də iqtisadi əlaqələrin genişləndirilməsi, yeni sərmayələrin cəlb edilməsi baxımından milli maraqlarımıza uyğundur və bu səfərin müsbət mənada ciddi nəticələri də gözlənilir.

Fransa-Ermənistan cütlüyünün BMT Təhlükəsizlik Şurasında Laçın yolundakı aksiyaya görə Bakıya qarşı qəbul etdirmək istədiyi qətnaməyə qarşı çıxan ölkələrdən birinin Birləşmiş Ərəb Əmirlikləri olması özü bizim üçün kifayət qədər əsas verir ki, əlaqələrimizi daha da yaxşılaşdıraq, inkişaf etdirək. Bunu da bilirik ki, Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü olan Birləşmiş Ərəb Əmirliklərinin BMT TŞ-nın qətnaməsinə qarşı çıxmaq səlahiyyəti var və bu səlahiyyəti hələ 2023-cü ilin sonuna qədər davam edəcək. Yəni, Abu-Dabi həmin müddət ərzində söz haqqına sahibdir və bu Azərbaycan üçün çox önəmlidir. Ələlxüsus indiki məqamda, yeni ermənipərəst qüvvələrin əldən-ayaqdan getdiyi bir zaman kəsiyində bunu qiymətləndirməmək olmaz. Birləşmiş Ərəb Əmirliklərinin dəstəyini öncədən almaq üçün bu ölkə ilə təmasları intünsivləşdirmək Azərbaycanın maraqlarına uyğundur. İstəyinə nail ola bilməyən ermənipərəst qüvvələrin hələ də çirkin niyyətlərdən, planlardan əl çəkmədiyi bəlli məsələdir və elə Fransanın timsalında aranı qarışdırmaq istəyən bir çoxlarının Təhlükəsizlik Şurasında Bakıya qarşı qərəzli mövqedən çıxış edəcəyi bəlli məsələdir və belə bir şəraitdə Təhlükəsizlik Şurasında hər bir səsin rəsmi Bakı üçün əhəmiyyətli olmasını nəzərə alaraq, Birləşmiş Ərəb Əmirlikləri ilə əlaqələrin daha da yaxşılaşdırılmasının, inkişaf etdirilməsinin əhəmiyyətini görməmək, başa düşməmək mümkün deyil. Bir sözlə, Birləşmiş Ərəb Əmirliklərinə səfərin siyasi baxımdan nə qədər önəmli olduğu artıq hər kəsə bəllidir və təkcə sadalanan məqamlar belə bu səfərin əhəmiyyətini izah etmək üçün kifayət edir.

Səfərin siyasi baxımdan əhəmiyyəti ilə yanaşı, onun iqtisadi səmərəliliyi də danılmazdır. Azərbaycan Prezidentinin BƏƏ-yə səfəri və görüşləri investisiyaların Azərbaycana yönəlməsi baxımından da xüsusi əhəmiyyət kəsb edir. Hamıya bəllidir ki, son 8 ildə Birləşmiş Ərəb Əmirliyi, ümimiyyətlə, Ərəb ölkələri Azərbaycan üçün ciddi tərəfdaşlardan hesab olunurlar. Məhz Birləşmiş Ərəb Əmirliyi Azərbaycana ciddi həcmdə alternativ enerji istehsalına görə ilk olaraq investisiya yatıran 2 ölkədən biridir. Bildiyimiz kimi, ötən ilin martında Birləşmiş Ərəb Əmirliyinin "Masdar" şirkəti tərəfindən Azərbaycanda inşa ediləcək 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasının martın 15-də Gülüstan sarayında təməlqoyma mərasimi keçirilib, hansı ki, bu invesrisiya layihəsinin dəyəri 225 milyon ABŞ dollarından çox qiymətləndirilib. Ümumiyyətlə, Birləşmiş Ərəb Əmirliyi indiyə qədər Azərbaycana 2,5 milyard həddində investisiya yatırıb və bu böyük rəqəmdir, ən azından bizim ölkəmizin BƏƏ-yə yatırdığı investisiyanın həcmindən dəfələrlə, daha dəqiq desək, 7 dəfə çoxdur. Məhz zəngin iqtisadi, maliyyə gücü olan bir ölkənin bizim ölkəmizə, Azərbaycana maraqla yanaşması böyük investisiya axınının reallaşması deməkdir. Belə bir sərmayə, belə bir yatırım gözləntilərinin olması səfərin siyasi əhəmiyyəti ilə yanaşı, iqtisadi əhəmiyyətinin də nə qədər böyük olduğunu göstərir.

***İnam Hacıyev***

# Tehran, Evin həbsxanası: Allahın “duymayacağı” adlandırılan yer üzünün cəhənnəmi!




*SİTAT: "O, qıvrıldı, qışqırdı və heç kimi öldürmədiyinə and içdi... Gəncin işgəncədən sağ çıxıb-çıxmaması tezliklə məlum olacaq. Əgər o, ağır cinayət törətdiyini etiraf edərsə, o zaman onun etirafı ölkə televiziyasında göstəriləcək, sonra isə gənc həbsxananın özündə asılacaq. Edamlar üçün ayrıca korpus var"*

**Dəhşətli işgəncələrə məruz qalan məhbuslar özlərinə tez bir zamanda ölüm arzulayırlar, çünki azadlığa çıxmaq şansı demək olar ki, sıfıra bərabərdir...**

Ötən il oktyabr ayının 15-də xarici KİVlər iranlı jurnalistlərə istinadən xəbər yaydılar ki, İranın paytaxtı Tehran şəhərində, Əlburz dağlarının ətəyində yerləşən və iranlılar arasında "gedişi olan dönüşü olmayan həbsxana" kimi adlandırılan Evin həbsxanasında yanğın baş verdi. İlkin məlumatlardan bəlli oldu ki, həbsxana orada cəza çəkən məhbusların qiyamları nəticəsində yandırılıb. Bu hadisədə 10-a yaxın məhbus həyatını itirib. Dünya mətbuatının diqqətini çəkən hadisənin təfərrüatı barədə isə İranın müvafiq qurumları tərəfindən rəsmi hər hansı açıqlama verilmədi.

Qeyd edək ki, İranın Tehran şəhərinin Evin məhəlləsində yerləşən həbsxana 1972-ci ildə Məhəmməd Rza Pəhləvinin hakimiyyəti dövründə tikilib. Həbsxana 1979-cu ildə baş verən İslam İnqilabından əvvəl və sonra siyasi məhbusların saxlanıldığı əsas yer olub. Həbsxananın ərazisində edam meydançası, məhkəmə zalı və ümumi cinayətkarlar və qadın məhbuslar üçün ayrıca kameralar mövcuddur. Adıçəkilən həbsxana əvvələr şahın təhlükəsizlik və kəşfiyyat xidməti olan SAVAK tərəfindən idarə edilib. Cəzaçəkmə müəssisəsi ilkin olaraq 320 məhbusun yerləşdirilməsi üçün nəzərdə tutulub. İranda siyasi hakimiyyət dəyişdiriləndən və İslam Respublikasına çevriləndən sonra isə Evinin ərazisi daha genişləndirilərək 15 min məhbusun saxlanılması üçün təmin edilib.

Daha bir diqqətçəkən məlumat ondan ibarətdir ki, kifayət qədər böyük əraziyə malik kompleks tipli həbsxanada qondarma ittihamlarla üzləşən çoxlu sayda siyasi, o cümlədən ikili vətəndaşlığı olan məhbuslar cəza çəkir. Bura həmçinin yer üzünün cəhənnəmi kimi də adlandırılır və uzun müddətdir ki, dünyanın bir sıra beynəlxalq hüquq müdafiəçiləri qrupları, habelə təşkilatları tərəfindən tənqid edilir. O cümlədən, 2018-ci ildə ABŞ hökuməti adıçəkilən cəzaçəkmə müəssisəsini "ciddi insan haqları pozuntularına" görə qara siyahıya salaraq Evini insan hüquqlarının pozulduğu ən dəhşətli həbsxana olaraq qiymətləndirib.

## İkili vətəndaş faktoru İranın ədliyyə sistemi üçün heç nə kəsb etmir - hətta ikili vətəndaşlar da edam olunurlar!

Bəllidir ki, bir sıra ölkələrdə ikili vətəndaşlıqları olan şəxslərin hökmlərinə xüsusi həssaslıqla yanaşılır və müvafiq qərarların verilməsi üçün onun digər ölkənin vətəndaşı olması nəzərə alınır və s. Lakin İran rejimi bu humanizm prinsipinə də qətiyyən əməl etmir. Bu kimi faktlar isə kifayət qədərdir.

Məsələn, ABŞ və İran vətəndaşlığı olan iş adamı Siamak Namazi 2015-ci ildə Tehranda ailəsini ziyarət edərkən İnqilab Keşikçiləri (SEPAH) tərəfindən saxlanılıb. O, 2016-cı ildə casusluq və ABŞ hökuməti ilə əməkdaşlıq ittihamı ilə 10 il həbs cəzasına məhkum edilib.



Digər siyasi məhbus - Emad Şərqi 2017-ci ildə həyat yoldaşı ilə birlikdə ABŞ-dan İrana köçüb. İran əsilli amerikalı iş adamı ilk dəfə 2018-ci ildə texnoloji investisiya şirkətində işlədiyi zaman həbs edilib. O, səkkiz aydan sonra zaminə buraxılıb, ancaq ölkəni tərk etməsinə icazə verilməyib. 2020-ci ilin noyabrında məhkəmə onu casusluqda ittiham edib və 10 il müddətinə həbs cəzasına məhkum olunub.

Qeyd edək ki, ötən ilin sentyabrından başlayan və bu günə qədər davam edən iğtişaşlar nəticəsində İran vətəndaşları kütləvi edamlara məruz qalmaqla yanaşı, ikili vətəndaşlığı olan əslən iranlı olan Böyük Britaniya vətəndaşı Əlirza Əkbəri də edam olunub. Əkbəri "korrupsiya və Britaniya hökumətinin kəşfiyyat xidməti üçün casusluq yolu ilə ölkənin daxili və xarici təhlükəsizliyinə qarşı geniş fəaliyyət göstərməkdə" ittiham edilərək edam cəzasına məhkum edilib. Edamın nə vaxt icra olunduğu açıqlanmır, bəzi xəbər agentlikləri bunun bir neçə gün əvvəl ola biləcəyini yazırlar. Artıq Britaniya hökuməti rəsmən öz etirazını bildirib və İrana qarşı addımlar atacağını bəyan edib. Əlirza Əkbəri 2008-ci ildə İranda qısa müddətə saxlanıldıqdan sonra Britaniyaya köçüb. Onun 2019-cu il yenidən İrana qayıtdıqdan sonra həbs olunduğu güman edilir.

Böyük Britaniyanın baş naziri Rishi Sunak Tvitter hesabında Əkbərinin edam edilməsi ilə bağlı xəbərlərə yanvarın 14-də reaksiya verib. O, bu edamı "öz xalqının insan haqlarına hörmət etməyən barbar rejim tərəfindən həyata keçirilən vəhşi və qorxaq hərəkət" adlandırıb.

Britaniyanın xarici işlər naziri Ceyms Kleverli yanvarın 14-də tvitində yazıb ki, "Bu barbar hərəkət ən sərt şəkildə qınanmağa layiqdir. Bu, etirazsız qalmayacaq".

Həmin bəyanatlardan sonra Böyük Britaniyanın Tehrandakı səfiri İran Xarici İşlər Nazirliyinə çağırılıb. "Britaniya hökuməti İranın milli təhlükəsizliyinə hücuma səbəb olan qeyri-ənənəvi rabitənin qurulmasına görə cavabdeh olmalıdır", nazirliyin yaydığı bəyanatda vurğulanır.

## Vatikandan etiraz!

Qeyd edək ki, Roma papası Fransisk İranda etirazçıların edamlarını qətiyyətlə pisləyib və "qadınlara daha ləyaqətli münasibət tələb edən" antihökumət nümayişlərinə haqq qazandırıb. Belə ki, Associated Press xəbər agentliyinin yazdığına görə, Papa bu bəyanatları Vatikanda akkreditə olunmuş səfirlərin qarşısında etdiyi ənənəvi illik çıxışında verib. O, vurğulayıb ki, kilsə abortlara qarşı olduğu kimi, həm də edamlara qarşıdır. Onun sözlərinə görə, bunların ikisi də həyat hüquqi kimi təməl hüquqdan məhrum edir. "Ölüm cəzasından dövlət ədliyyəsi məqsədilə istifadə oluna bilməz, çünki bu, nə çəkindirici rol oynayır, nə də qurbanlar üçün ədalət gətirir, əksinə qisas hissini alovlandırır", deyə o bildirib.

Xatırladaq ki, İranın ali rəhbəri ayətullah Əli Xameneyi yanvarın 9-da demişdi ki, ictimai yerlərə od vuranlar "şübhəsiz dövlətə xəyanət edənlərdir" və belə hərəkətlər İslam Respublikasında ölümlə cəzalandırılır. O İranda davam edən kütləvi etirazların "xarici düşmənlər" tərəfindən qızışdırıldığına dair iddialarını bir daha təkrar edib. Beləliklə, Xameneyinin bu bəyanatları hakimiyyəti həbs edilmiş etirazçılara daha ağır cəzaların verilməsinə sövq edə bilər.

## Qadınlara qarşı amansız vəhşiliklər - Evin həbsxanasında nə baş verir?

"İran qadınlarının iniltisi: Məhbuslar həbsxanalardakı dəhşətli şəraitdən danışırlar ". SİA xəbər verir ki, bu barədə BBC yazır. Həsən Kassem adlı jurnalistin yazdığı geniş tərkibli məqalədə bir sıra dəhşətli məqamlara toxunulur. Bildirilir ki, 2022-ci ilin sentyabrında İranda etirazlar başlayandan sonra Qolianın kitab götürdüyü həbsxana qanadı sorğu-sual və işgəncə korpusuna çevrilib. Həmin məqalədəki bir sıra diqqəti cəlb edən faktları sadalayaq.

Müəllif yazır ki, İran etirazları zamanı hakimiyyətin məhbusları göndərdiyi Tehran yaxınlığındakı Evin həbsxanası xəbərlərdə getdikcə daha çox xatırlanır. Bu yaxınlarda həbsdə olan hüquq müdafiəçisi Sepide Qolian azadlığa məktub göndərib. SİTAT: "Qolianın məktubunun həbsxanadan necə çıxarıldığı məlum deyil, lakin bu məktub sayəsində İran İslam Respublikasının penitensiar müəssisələrində saxlanma şəraitinin təfərrüatları məlum olub. Qeyd edək ki, İran hakimiyyəti həbsxanalarda sui-istifadə hallarının mövcudluğunu inkar edir, Qərbin təsiri altına düşən xainləri böhtanda ittiham edir".




## Kitabxanada aparılan sorğu-sual - nə baş verib?

Məqalədə bildirilir ki, Sepide Qolian Evin həbsxanasına indiki etirazlardan xeyli əvvəl gəlib. O, artıq dördüncü ildir ki, həbsxanadadır. Belə ki, Qızın problemləri 2018-ci ildə ölkənin qərbindəki şəkər zavodunda işçilərin tətilini dəstəklədiyi vaxt başlayıb. SİTAT: "Əvvəlcə onu yalnız sorğu-sual üçün Evinə gətiriblər. Müstəntiqlə söhbət qısa olub və o, dərhal deyib ki, ondan heç bir qadın həmrəyliyi gözləmək lazım deyil. "Kiminlə yatdığını etiraf et, kommunist korrupsioner qız!", deyə müstəntiq qışqırıb. Qısa məhkəmə prosesindən sonra Qolian milli təhlükəsizliyə cəhddə təqsirli bilinərək 5 il müddətinə azadlıqdan məhrum edilib. Məktubda məhbus qadın deyir ki, əvvəldən ətrafda baş verənlərə fikir verməməyə çalışıb. Boş vaxtı olanda Qolianın fikrini fiqh üzrə kitablar oxumaqla yayındırıb".

"Əvvəllər cəzaçəkmə müəssisəsində kitabxana olub. Lakin 2022-ci il sentyabrın ortalarında İranda kütləvi etirazlar başlayanda Tehranın əsas həbsxanasında kitab oxumağa vaxt olmayıb. O vaxtdan bəri hər gün daha çox məhbus onsuz da dolu olan həbsxana kameralarına sıxışdırılır. Qolianın kitab götürdüyü həbsxananın "mədəni" qanadı isə qurumun səlahiyyətliləri tərəfindən sorğu-sual və işgəncə üçün profilini dəyişib. Oğlan və qızları indi ora aparırlar ki, onları işgəncə ilə etirafa məcbur etsinlər", deyə Qolian yazır.

Qolianın sözlərinə görə, məhbuslara saatlarla işgəncə verilə bilər. Mühafizəçilər bədbəxtlərin hər şeyə hazır olduğunu görəndə üzərində etiraf mətni olan kağızı sürüşdürərək oxumağı tələb edirlər. Yeri gəlmişkən, üç gün tualetdə kilidli saxlayaraq Qolianın özündən də bir etiraf da alıblar.

Hüquq müdafiəçisi yeni il qabağı, dekabrın 29-da gözü bağlı bir oğlanın işgəncə otağına necə sürükləndiyini təsvir edir. SİTAT: "O, qıvrıldı, qışqırdı və heç kimi öldürmədiyinə and içdi... Gəncin işgəncədən sağ çıxıb-çıxmaması tezliklə məlum olacaq. Əgər o, ağır cinayət törətdiyini etiraf edərsə, o zaman onun etirafı ölkə televiziyasında göstəriləcək, sonra isə gənc həbsxananın özündə asılacaq. Edamlar üçün ayrıca korpus var".

## Qarmaqlar üzərində qadınlara verilən işgəncə

İranda digər tanınmış hüquq müdafiəçisi Nərgiz Məhəmmədi Evin həbsxanasında yaşam təcrübəsini bölüşüb. Hakimiyyət orqanları 50 yaşlı fəalı hələ sentyabr ayında "təbliğat yaydığına" və düzgün bağlanmayan hicabla küçəyə çıxdığına görə həbs edib. Nəticədə azadlığa dəhşətli ifşalarla dolu olan məktub göndərməyi bacaran Nərgiz bəzi qızların kabinələrin tavanına qarmaqlar bərkidilən xüsusi maşınlarda həbsxanaya necə gətirildiyini danışıb. Təfərrüatlar isə heç də ürəkaçan deyil. Belə ki, etiraz edən qızları bu qarmaqlara ayaqlarından və qollarından bağlayıb Evinə aparırlar və səfər zamanı qızlara cinsi təcavüz edilir!

## Evin həbsxanasında "siğə nikahı" adı altında cinsi təcavüzlər!

Hüquq müdafiəçisi deyir ki, həbsxananın özündə qadınlar üzərində hakimiyyət tez-tez kollektiv cəza tətbiq edən mühafizəçilərə keçir. Belə ki, sentyabrın sonunda məhbuslardan biri məcburi formanın bir hissəsi olan dövlət büstqalterini geyməyib, çünki bu, onu çox qaşınma verirdi. Buna görə yerli həbsxana işçiləri həbsxananın bütün qadınlarını cəzalandırmaq qərarına gəliblər. Onları bir yerə toplayıb, "şəhər fahişələri" adlandıraraq təhqirlərə məruz qoyublar, sonra isə lüt soyunmağı əmr ediblər.

"Hamını soyunmağa, alt paltarını çıxarıb tərsinə çevirməyə məcbur ediblər. Ancaq bir həftədən sonra həmin qadınlara alt paltarlarını geyinməyə icazə veriblər", deyə Nərgiz yazıb.

Diqqətçəkən daha bir fakt. Qeyd olunur ki, həbsxana rəhbərliyinin xüsusilə gözəl qızlara "yazığı" gəlir. Mühafizəçilər yaraşıqlı bir qadının həbsxana həyatına dözməsinin çətin olduğunu görəndə, onu sorğu otağına aparırlar və daha yaxşı şərait müqabilində cinsi xidmətlər göstərməyi təklif edirlər. Eyni zamanda, heç kim İslam qanunlarını rəsmi şəkildə pozmur, kişilər öz iradələrini bildirmiş qadınlarla "siğə nikahı" adlanırılan və əslində İslama zidd olan izdivaca girirlər və onlar həbsdən çıxmazdan əvvəl vaxtaşırı "siğə nikahı" vasitəsi ilə görüşürlər.

## Psixoloji işgəncələrə məruz qalan məhbuslar özlərinə tez bir ölüm arzulayırlar!

Evin həbsxanasında digər ən ağır cəzalara gəlincə, onlardan daha çox anonim hüquq müdafiəçiləri danışır. Belə ki, İrandan olan fəal Şəhla məhbusların tətbiq etdiyi psixoloji işgəncələr barədə məlumat verib. Onlar dindirmə otağının girişindən başlayırlar, burada məhbuslar məşum ifadə ilə qarşılanır: "Xoş gəlmisiniz, Allah burada sizi eşitməyəcək".

"Üstəlik, məhbuslar özlərini açıq və mehriban apara bilər, sonra qəfildən "pis polis" maskası taxıb məhbusa rəqs etməyi əmr edə bilər və onların fikrincə, rəqs kifayət qədər bədii deyilsə, cəzalandıra bilər. Bəzi mühafizəçilər dərhal daha sərt təzyiqə keçirlər: gülümsəyə bilirlər və sonra qəfildən döşəmədən soyulan keramik plitəni qoparıb məhbusun başına atırlar. Digər daha mürəkkəb işgəncə məhbusun özünü ruhi xəstə olduğunu düşünməyə məcbur etməkdir. Onunla heç nə başa düşməyən uşaq kimi danışmağa başlayırlar. Sonra adi həbsxana blokundan psixiatriya palatasına köçürülür. Orada məhbuslarla ruhi xəstə kimi rəftar olunur, anlaşılmaz dərmanlar içməyə məcbur edilir, çarpayıya bağlanır, iynə vurulur. Çox güman ki, hicabsız küçəyə çıxan qızları bu palataya tez-tez göndərirlər", deyə qeyd edilən məqalədə vurğulanır ki, psixoloji işgəncələrə məruz qalan məhbuslar özlərinə tez bir zamanda ölüm arzulayırlar, çünki azadlığa çıxmaq şansı demək olar ki, sıfıra bərabərdir...", deyə bildirilir.

## İranın əyalətlərində fəaliyyət göstərən həbsxanalar da Evindən geri qalmırlar

Bu arada, İranda dəfələrlə həbsxanalara düşən və möcüzəvi şəkildə qurtulmağı bacaran bir sıra siyasi məhbuslar əyalətlərdəki həbsxanaların da Evin həbsxanasından heç də geri qalmadığını bildirirlər. Məsələ ondadır ki, dünya ictimaiyyətinin, hüquq müdafiə təşkilatlarının, fəalların diqqəti bu həbsxanaya yönəlib, çünki ora hakimiyyətə yaxın adamlar, eləcə də "Oskar" mükafatlı iranlı aktrisa Təranə Əlidusti kimi məşhurlar göndərilib. Minlərlə insan onların taleyini seyr edir, ona görə də mühafizəçilər heç olmasa özlərini cilovlamağa çalışırlar.

Belə ki, İran doğumlu ərəb jurnalist Yusif Azizi Bani-Torofun bildirdiyinə görə, əsl dəhşətlər paytaxtdan uzaqda həbsxanada olanda başlayır. Bir vaxtlar o, "Ayətullahın gizli həbsxanaları"ndan birində vaxt keçirib və indi də yaşadıqlarını dünyaya danışır. Misal üçün, ölkənin cənub-qərbindəki Huzistan həbsxanalarında dustaqlrın 55 dərəcə istidə insanların günlərlə iki metrlik kameralarda tarakanlı, işıqsız, yeməksiz və susuz saxlanılırlar.

## Qanlı İran hakimiyyətinin öz vətəndaşlarına qarşı riyakarlığı o qədər kök salıb ki, həqiqətin harada, saxtanın harada olduğunu müəyyən etmək çətindir

Bani-Torofun sözlərinə görə, məhbusların arvadları və uşaqları xüsusi olaraq gizli həbsxanalara gətirilir. Məsələn, Ərdəşir adlı məhbusun ilk sorğu-sualında həbsxana işçiləri birdən onun arvadı Leylanı kameraya gətiriblər. Əri öz əməlini etiraf edənə qədər onun gözü qarşısında qadını vəhşicəsinə döyüblər. O cümlədən, qanlı İran hakimiyyətinin öz vətəndaşlarına qarşı riyakarlığı o qədər kök salıb ki, həqiqətin harada, saxtanın harada olduğunu müəyyən etmək çətindir.

## Sosial, iqtisadi və siyasi azadlıq tələb edən müxalifət ayətullah rejiminin məğlubiyyətinin çox da uzaqda olmadığını iddia edirlər

"Bu gün İranın hər yerində küçələrdə eşitdiyimiz etiraz səsləri dindirmə otaqlarında işgəncəyə məruz qalanların qışqırıqlarından daha güclüdür", deyə adı məqalənin əvvəlində qeyd edilən hüquq müdafiəçisi Qoliana sözügedən məktubunda qeyd edir və bildirir. SİTAT: "Bu, inqilabın səsidir, qadınların, həyatın, azadlığın əsl səsidir... Qadınlar, həyat, azadlıq" şüarı hətta Evin həbsxanasının qalın divarlarını aşaraq bizə çatır".

## Avropa İttifaqı ölkələri ayaqdadır!

Sonda isə bir məqamı da diqqətə çatdıraq. Belə ki, Reuters xəbər agentliyinin yazdığına görə, artıq bir sıra Avropa ölkələri İranda vətəndaşlara qarşı vəhşiliklərin törədilməsində xüsusi xidmətləri olan SEPAH-ı terrorçu qurum kimi elan edirlər. Məsələn, Avropa Komissiyasının rəhbəri Ursula fon Lyayen SEPAH-ın Avropa İttifaqı ölkələri tərəfindən terrorçu təşkilat kimi tanınmasını əks etdirən qərara dəstəyini nümayiş etdirib və bildirib ki, belə bir qərarın qəbul edilməsi İranda insan azadlığı və hüquqlarının pozulmasına qarşı göstəriləcək ən ciddi reaksiya kimi dəyərləndirilə bilər.

İranda etiraz nümayişlərində iştirak etdiklərinə görə həbs edilən və müxtəlif ittihamlarla günahlandırılan 109 etirazçı edam təhlükəsi ilə üz-üzədir. Bu barədə mərkəzi ofisi Norveçin paytaxtı Osloda yerləşən İran İnsan Haqları təşkilatı məlumat verib. İran İnsan Haqları Təşkilatı İran vətəndaş cəmiyyətini və beynəlxalq ictimaiyyəti əsassız həbslər, həbs və dindirmə zamanı fiziki və cinsi zorakılıqlar və kütləvi cəzaların verilməsi yolu ilə repressiyaların gücləndirilməsinə diqqəti artırmağa çağırıb.

Təkcə son 4 ayda İranda ölən etirazçıların sayı 520-yə çatıb və bu rəqəm hər gün artır. Sözügedən məlumat isə ABŞ mərkəzli İranda Hüquq Müdafiəçiləri təşkilatının teleqram səhifəsində verilib. Bildirilib ki, ölənlərin 70-nin yaşı 18-dən az olan şəxslərdir. Qeyd olunub ki, 17 sentyabr tarixindən aparılan hesablamaya görə, 19 396 nəfər həbs olunub. Onlardan 4 888 nəfərin kimliyi və saxlanılma yeri bəlli deyil. Eyni zamanda, həbs olunan 708 nəfər tələbədir. Nümayişlərə 144 universitetin öyrənciləri qoşulub.

Danimarka və Belçika hökumətləri də etirazçıların edamına görə, İranın bu ölkələrdəki səfirliklərini XİN-ə çağıracaqlarını bildiriblər. Avropa Birliyinin hər iki ölkəsinin xarici işlər naziri İrana qarşı yeni sanksiyaların tətbiqi məsələsini gündəmə gətirəcəklərini deyiblər. Belə ki, Danimarkanın xarici işlər naziri Lars Loke Rasmussen Reuters xəbər agentliyinə bildirib ki, İranın Kopenhagendəki səfirinə Tehran hökumətinin İran xalqına qarşı repressiyalarına etirazını bildirmək üçün Danimarka XİN-ə çağrılacaq.

Habelə Belçikanın xarici işlər naziri Haca Ləhib də özünün Twitter hesabında İrandakı edamlardan dəhşətə gəldiyini və Avropa Birliyinin digər həmfikir dövlətləri ilə birlikdə İrana qarşı yeni addımlar atacaqlarını yazıb.

## Almaniya XİN-dən sərt reaksiya!

Bundan əvvəl isə İranın Almaniyadakı səfiri də XİN-ə çağırılmışdı. Belə ki, İranda baş verən ardıcıl edamlar buna səbəb olub. Sözügedən məlumatı Almaniyanın xarici işlər naziri Annalena Berbok verib. Nazir qeyd edib ki, onun tərəfindən İran səfirinə bu ölkədə etirazçılara qarşı amansız davranışların yolverilməzliyi çatdırılıb.

Belə ki, rəsmi Tehranın ölkə əhalisinə qarşı terrorçu siyasət yürütməsi və eləcə də edamlar cavabsız qalmayacaq. Almaniyanın ardınca Fransa, Böyük Britaniya, Belçika, Hollandiya və digər aparıcı Avropa ölkələrinin XİN-ləri də eyni addımlarını ataraq İranın bu ölkədəki səfirlərinə öz qəti etirazlarını bildiriblər.

Beləliklə, bu vəhşət olayları bir daha Tehran rejiminin öz vətəndaşlarına qarşı nə qədər zalım olduğunu bir daha sübuta yetirir. O cümlədən, əgər bu gün Tehran rejiminin baş dini-ideologiyaçısı, ayətullah Seyyid Əli Xameneyi də güc strukturlarını etiraz edənlərə qarşı amansız davranmağa çağırırsa, hətta edam hökmlərinin artırılmasını əmr edirsə, demək ki, belə bir quruluş nəinki öz vətəndaşlarına, eləcə də özünün kirli siyasəti ilə qonşu region insanlarına da ciddi təhlükələr yarada bilər.

***Rövşən RƏSULOV***

*5 min illik dövlətçilik tariximizdə xalqımıza məxsus çoxsaylı qəhrəmanlıq səhifələrimiz var. Məhz bu qəhrəmanlıqlarla imperiyalar qurmuş, uzunmüddətli dövlətçilik ənənələri yaratmışıq. Təəssüf ki, qəhrəmanlıq salnaməsi yazan xalqımız, müxtəlif vaxtlarda faciələrlə də üzləşməli olub. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə imperiya cəlladlarının Bakıda törətdikləri vəhşiliklər üzücü faciələrdəndir.*




# 5 min illik dövlətçilik tariximizin 20 Yanvar səhifəsi

Həmin gün uzun illər SSRİ tərkibində yaşayan xalqımız azadlığa qovuşmaq üçün canından belə keçməyə hazır olduğunu bir daha dünyaya nümayiş etdirdi. Xalqımızın qan yaddaşında əbədi yaşayacaq 20 Yanvar faciəsi hər il Ümumxalq Hüzn Günü kimi geniş qeyd olunur. Faciənin baş verdiyi o müdhiş gecə sovet əsgərləri tərəfindən 121 insan qətlə yetirilmiş və 700-dən artıq vətəndaş yaralanmış və xəsarət almışdır. Uzun müddət qanlı faciə öz siyasi və hüquqi qiymətini almamışdır. Yalnız 21 noyabr 1990-cı il tarixli qərarı ilə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisində 20 Yanvar faciəsinə ilk siyasi qiymət verildi. Məhz Ümummilli liderimizin təşəbbüsü və göstərişləri ilə 1994-cü ilin mart ayının 29-da parlament "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" Qərar qəbul etdi.

## 20 Yanvar faciəsi məhz Ulu Öndər Heydər Əliyev tərəfindən öz siyasi-hüquqi qiymətini aldı

Tarixə nəzər saldıqda bəlli olur ki, o zaman imperiya cəlladları məqsədyönlü şəkildə 20 yanvar faciəsini törətmişlər. Bununla Azərbaycan xalqının müstəqllik uğrunda azadlıq mübarizəsini sındırmağa ümid bəsləmişlər. Azərbaycanın sərhədlərinin pozulması bəhanəsi də bu mənada qanlı qırğına haqq qazandıra bilərdi. Buna görə də imperiya başçıları məhz sərhədçilərə insanlara dəyməmək əmri vermişdilər. Artıq dekabrın 31-də Araz çayı ətrafı 137 kilometrlik Sovet-İran sərhədində izdiham baş qaldırdı. Nəticədə sərhəd qurğuları uçuruldu. Hər iki tərəfin adamları Arazı keçərək bir-biri ilə görüşdülər.1990-cı il yanvarın 7-də SSRİ-Türkiyə sərhədində də həyəcanlar baş qaldırdı.Yanvarın 18-də Biləsuvar və Cəlilabad ərazilərində sərhəd qurğuları dağıdıldı. Xalq Cənub tərəfdəki qan qardaşları ilə qovuşdu. Belə bir şəraitdə Lənkəranda hadisələr sakit şəkildə davam edirdi. 1990-cı il yanvarın 11-də rayon partiya komitəsi, daxili işlər şöbəsi, mətbəə və digər sahələr mühasirəyə alındı. Rayonda müvəqqəti müdafiə komitəsi yaradıldı.Yanvarın 12-də xalqa divan tutmaq məqsədilə ölkənin mexanikləşdirilmiş hərbi hissələri Lənkərana yeridildi. Bunun qarşısını kəsmək üçün qonşu Salyan, Sabirabad, Kürdəmir bölgələrində xalq ordu hissələri hərəkət edən yolların qarşısını kəsdi.

Bu hadisələr hakimiyyət böhranının, eləcə də Moskvadakı cəlladların Azərbaycanda baş verən hadisələrə nəzarəti tam itirməsinin təcəssümü idi. Belə bir şəraitdə ermənilərin təhrikçilik hərəkətləri, onların sərhəd kəndlərimizə, eləcə də Qarabağdakı azərbaycanlılar yaşayan bölgələrə silahlı hücumları gücləndi. Yanvarın 12-də Ermənistandan 500 nəfərlik silahlı quldur dəstəsi Xanlar rayonunun Quşçu kəndinə basqın edib silahsız əhaliyə divan tutdu, çoxlu insan - qadınlar, uşaqlar vəhşicəsinə öldürüldü. Bütün bunlar müxtəlif yollarla şərait yaradan Moskva rəhbərliyi öz məqsədinə çatmış, xalqı radikallaşdıra bilmişdi.

## İmperiya cəlladları Azərbaycanın əldən çıxacağından qorxub Bakının ətrafına ordu bölmələri yığdı

Yanvarın 12-də Azərbaycandakı radikal qüvvələr Milli Müdafiə Şurası yaratdılar. Məqsədləri silahlı özünümüdafiə dəstələrini bir yerə cəmləşdirmək, yeni hərbi dəstələr yaratmaq və erməni hərbi birləşmələrinin basqınlarının qarşısını kəsmək idi. Respublikada AXC-ni dağıtmaq, xalq hərəkatını yatırmaq üçün münasib şərait yetişmişdi. Yanvarın 13-də Bakıda bir erməninin 2 nəfər azərbaycanlını öldürməsi paytaxtda iğtişaşları gücləndirdi. Yerli hüquq-mühafizə orqanları, eləcə də Bakıda yerləşən SSRİ Daxili İşlər Nazirliyinin 12 minlik silahlı dəstələri isə bunun qarşısını almağa heç bir cəhd göstərmədi. İmperiya Bakıda Sovet dövlətinin devriləcəyindən, eləcə də Azərbaycanın əldən çıxacağından qorxub paytaxt ətrafına əlavə ordu bölmələri, ağır texnika yeritməyə başladı. MMŞ-nin fəallığı ilə Bakıətrafı sahələrdə və Bakı qarnizonunun yaxınlığında əhali yük, minik maşınları, avtobusları yanyana düzərək barrikadalar yaratdılar. Yolların ətrafında 26 iri maneə təşkil edildi. Salyan kazarmasının yolu kəsildi. 1990-cı il yanvarın ortalarında Azərbaycan KP MK-nın büro iclaslarında respublikadakı mövcud vəziyyət müzakirə olunurdu. Çıxış edənlər Ə.Vəzirov, A.Mütəllibov, V.Polyaniçko, E.Qafarova və başqaları, eləcə də Bakıda olan Y.Primakov və yüksək rütbəli Moskva hərbçiləri güc tətbiq olunmasının zəruriliyini bildirdilər. Buna etiraz edən və ya başqa təklif verən isə olmadı. 1990-cı il yanvarın 15-də Ə.Vəzirov Moskvaya teleqram göndərərək tələb edirdi ki, "Antisovet, antipatiya şüarları ilə mitinq edən ekstremistlərin liderləri dərhal məsuliyyətə cəlb edilməlidirlər. Bunun üçün hüquqi əsaslar vardır". Bunun ardınca Azərbaycan SSR Nazirlər Sovetinin sədri A.Mütəllibov Moskvaya göndərdiyi teleqramda bildirirdi ki, respublikanın SSRİ güc nazirlikləri hərbi kontingentini qeyri-qanuni silahlı birləşmələri tərksilah etmək üçün əməliyyat keçirəcəkləri müddətdə yerləşdirmək və ərzaqla təmin etmək üçün hər cür imkanı vardır. Azərbaycan Ali Soveti Rəyasət Heyətinin müraciətinə əsasən, SSRİ Ali Soveti Rəyasət Heyəti yanvarın 15-də rayonlarda fövqəladə vəziyyət elan olunması haqqında fərman verdi. İmperiya Azərbaycan Ali Sovetinə təklif etdi ki, Bakı və Gəncə şəhərlərində və digər yaşayış məntəqələrində komendant saatı tətbiq edilməsi də daxil olmaqla lazımi tədbirlər görsün.

1990-cı il yanvarın 17-dən AKP MK-ın binası qarşısında əzəmətli mitinq keçirildi və ümumi tətil elan olundu. Mitinqdəki çıxışlarda tələb edildi ki, Moskva Ermənistanın Azərbaycana ərazi iddialarına qəti olaraq son qoysun. İmperiyanın Bakıya və ətraf bölgələrə yığdığı qoşunlar Dağlıq Qarabağa və erməni hücumlarına məruz qalan sərhəd bölgələrinə göndərilsin. Mərkəz Naxçıvanda da xalqı cəzalandırmaq məqsədilə fövqəladə vəziyyət tətbiq edilməsi üçün təzyiqlərini artırırdı. Yanvarın 18-də Şərur rayonu Kərki kəndinin erməni işğalçıları tərəfindən zəbt edilməsi vəziyyəti daha da mürəkkəbləşdirdi. Xalqın tələbi ilə yanvarın 19-da Naxçıvan MSSR Ali Soveti muxtar respublikanın SSRİ tərkibindən çıxması haqqında qərar qəbul etdi. Bunda məqsəd isə Azərbaycanda baş verən hadisələrə, Sovet ordusunun qanlı əməllərinə dünya xalqlarının diqqətini cəlb etmək idi və bu addım müəyyən rol oynaya bildi.

## Cinayətə Sovet dövlətinin müdafiə naziri Yazov birbaşa başçılıq edirdi

SSRİ Ali Soveti Rəyasət Heyəti 1990-cı il yanvarın 19-da "Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında" fərman verdi. Xalqa divan tutmaq, qırğın törətmək üçün ordudan istifadə olunacağı nəzərə alınaraq fövqəladə vəziyyətin elan olunacağı vaxt gizli saxlanıldı. Bakıda fəaliyyətlərini davam etdirən radikallar insanlara "Silah, kömək gələcək" - deyə yalan vədlər verir, xalqın bir hissəsini barrikadaları sonadək qorumağı və buranı tərk etməməyə çağırırdılar. Piketdə iştirak edənlər imperiyanın, eləcə də Azərbaycanın səlahiyyətli nümayəndələrinin qoşunun şəhərə daxil olmayacağı ilə bağlı dəfələrlə təkrar etdikləri yalan vədlərə inanmışdılar. Xalq baş verə biləcək qırğından xəbər tutmasın deyə, yanvarın 19-da respublika televiziyasının enerji bloku partladılaraq sıradan çıxarıldı. Qoşun bölmələri yanvarın 19-da Türkan-Qala istiqamətindən şəhərə hərəkət etməyə başladılar. "Bakı əməliyyatı"na Sovet dövlətinin müdafiə naziri D.Yazov birbaşa başçılıq edirdi. Ağır hərbi texnika asanlıqla barrikadaları dağıtmağa başladı. Əsgərlər gözyaşardıcı qazdan istifadə edir, əliyalın adamlara avtomat silahlardan atəş açırdılar. Hərbçilər təsadüf nəticəsində yola çıxanları, yaşayış evlərini, təcili yardım maşınlarını, nəqliyyatı atəşə tutur, yaralı insanları öldürür, meyitləri yandırdılar. Bakı küçələri öldürülmüş, yaralanmış adamların, qocaların, qadınların, uşaqların qanına qərq olmuşdu. Əsgərlər tibbi heyətin yaralılara köməyə getməsinə şərait yaratmır, hər vəchlə buna mane olmağa çalışırdılar. Əldə olunmuş rəsmi məlumatlara görə, Bakıya və başqa yaşayış məntəqələrinə Sovet qoşunlarının basqını vaxtı 131 nəfər, o cümlədən 117 azərbaycanlı, 6 rus, 3 yəhudi və 3 tatar öldürülmüş, 744 nəfər yaralanmış, 400 nəfər həbs edilmiş, 4 nəfər isə itkin düşmüşdür.

Fövqəladə vəziyyət haqqında fərman artıq iş-işdən keçəndən sonra, yanvarın 20-də elan olunmuşdu. Azərbaycanda rəhbər vəzifədə olanlar xalqa kömək etmək, ona arxa durmaq əvəzinə kürsülərini qorumaq naminə qaçıb gizləndilər. Ziyalıların bir qismi yanvarın 20-də Elmlər Akademiyasında etiraz mitinqi keçirdi. Ziyalıları qorxutmaq üçün bu mitinqin iştirakçısı olan 3 tanınmış alim, professor Bakı-Sumqayıt yolunda tankın altına salınıb şəhid edildi. Şəhidlər Bakının ən uca yerində - Dağüstü parkda dəfn edildi. Dəfn mərasimində yüz minlərlə insan iştirak etdi.

## Yenə də xalqının yanında olan Ulu Öndər

Başsız qalmış xalq qorxu içində idi. Yanvarın 21-də Ulu Öndər Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək 10 minədək adamın iştirak etdiyi izdihamlı yığıncaqda çıxış etdi və bu ağır günlərdə heç yerdən kömək almayan doğma xalqı ilə birgə olduğunu nümayiş etdirdi. Dahi Öndər çıxışında bildirdi: "Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya və siyasi rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsəydi, gərginlik indiki həddə çatmaz, tərəflər itkilərə məruz qalmaz, başlıcası isə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün zəmin yaranmazdı". Ulu Öndər Heydər Əliyev çıxışında pespublika rəhbərlərinin yarıtmaz fəaliyyətini ifşa etdi və bildirdi ki, Vəzirov bu yüksək vəzifədə olduğu müddətdə... Azərbaycanda vəziyyəti sabitləşdirmək üçün heç nə etməmişdir. Əksinə, səhv addımları, yaramaz iş üslubu, yanlış siyasi manevrləri ilə xalqla öz arasında uçurum yaratmışdır".

Ulu Öndər Heydər Əliyev 20 yanvar şəhidləri haqqında demişdir: "20 Yanvar faciəsində həlak olanlar xalq qəhrəmanlarıdır, onlar millətimizin qəhrəmanlarıdır. Onların həlak olması bizim üçün, xalqımız üçün böyük itkidir. Ancaq eyni zamanda onların şəhid olması xalqımızın qəhrəmanlıq rəmzidir. Onların tökülən qanı bütün xalqımızın qanıdır. O qanın hər damcısında xalqımızın qüdrəti, qəhrəmanlığı var, xalqımızın milli azadlıq, müstəqillik arzuları vardır. O gecə tökülən qanlar Azərbaycanın müstəqilliyini nümayiş etdirən milli bayrağımızın üstündəki qandır".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxışlarının birində demişdir: "Şəhidlər ölmür, onlar bizim qəlbimizdə əbədi yaşayırlar". 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, o cümlədən, onların ailələrinin sosial müdafiəsinin gücləndirilməsini daim diqqət mərkəzində saxlanılır. Dərsliklərdə 20 yanvar faciəsinin qurbanları haqqında dərs vəsaitləri tədris olunur. Bütün bunlar faciə qurbanlarının adlarının xalqımız tərəfindən uca tutulduğunu bir daha göstərir. Bu hadisə həm də ləyaqətini, qeyrətini qorumaq üçün mübarizə aparmaqla bu yolda qurbanlar verməyə hazır olan xalqın tarixində şərəfli bir səhifədir. On illər keçsə də, 20 Yanvar faciəsinin şəhidləri unudulmayacaqlar. Onlar dövlətimiz var olduqca, xalqımızın qəlbində yaşayacaqlar.

**İ.ƏLİYEV**

# Azərbaycan Qırğızıstan münasibətləri: 30 illik strateji tərəfdaşlıq müstəvisində



***Ümummilli Lider Heydər Əliyev siyasi məktəbinin layiqli davamçısı, ölkə Prezidenti Cənab İlham Əliyevin uğurlu xarici siyasi fəaliyyəti və qətiyyətli mövqeyi sayəsində Azərbaycan bölgədə böyük nüfuz sahibi olan ölkəyə çevrilmişdir. Azərbaycan dünyada özünü etibarlı tərəfdaş kimi təsdiq edərək beynəlxalq arenada nüfuzunun daha da yüksəlməsinə nail olmuşdur. Qeyd etmək lazımdır ki, Azərbaycan Mərkəzi və Orta Asiya ölkələri ilə də sıx siyasi və iqtisadi əlaqələrə malikdir. Xalqlarımızın dil, din, mədəniyyət, mənəvi dəyərlər baxımından yaxınlığı, eyni zamanda ortaq tarixə malik olması bu əlaqələrə təsir göstərən mühüm amillərdən biridir.***

Ölkəmizin türkdilli dövlətlər arasındakı münasibətləri yüksələn xətlə inkişaf etməsinə Azərbaycanın Qırğızıstanla olan əlaqələrini misal göstərmək olar. Azərbaycan-Qırğızıstan əlaqələrinin bütün sahələrdə uğurla inkişafı, iki ölkə arasında imzalanan sənədlər strateji münasibətlərin və müttəfiqlik əlaqələrinin daha da möhkəmlənməsinə, ölkələrimiz arasında əməkdaşlığın ildən-ilə güclənməsinə gətirib çıxarır. Ötən 30 il ərzində Azərbaycan və Qırğıstan çoxəsrlik dostluq ənənələrini nəinki qoruyub saxlamağa, genişləndirməyə, münasibətlərini strateji tərəfdaşlıq səviyyəsində inkişaf etdirməyə nail olub. Qeyd edək ki, azərbaycanlılar və qırğızlar eyni kökə, mədəniyyətə, qədim tarixi münasibətlərə və ənənələrə malikdirlər. Bundan başqa bu xalqları dil və din eyniliyi də birləşdirir. Hər iki xalq çar imperiyası və Sovetlər ittifaqı dönəmində vahid mərkəzdən idarə olunublar. Bu gün dövlətlərarası diplomatik əlaqələrin qurulmasından 30 il ötür. İki ölkə arasında diplomatik əlaqələr 1993-cü ilin yanvar ayının 19-da qurulmuşdur. 1996-cı ilin ortalarında Azərbaycan Respublikasının Qırğızıstan Respublikasında, 1998-ci ilin may ayında Qırğızıstan Respublikasının Azərbaycan Respublikasında səfirlikləri fəaliyyətə başlayıb. İkitərəfli münasibətlərin inkişafında dövlət başçılarının səfərləri xüsusilə böyük əhəmiyyətə malikdir.

Bu gün Qırğızıstanda 20 minə qədər azərbaycanlı yaşayır. Onlar Qırğızıstanın ictimai-siyasi həyatında yaxından iştirak edirlər. Qırğızıstanda yaşayan azərbaycanlıların əksəriyyəti 1930-cu illərin repressiyaları zamanı Azərbaycandan sürgün olunanlar və onların övladlarıdır. Azərbaycanlılar əsasən, Bişkek, Talas, Qara-Balta şəhərlərində yaşayırlar. Öz tarixi yurdlarından ayrı yaşamalarına baxmayaraq, Qırğızıstanda yaşayan azərbaycanlılar dil və adətlərini qoruyub saxlamışlar.

Müstəqilliyin ilk illərində Azərbaycan-Qırğızıstan əlaqələri Mərkəzi Asiyanın digər türk dövlətləri ilə olduğu kimi, əsasən, beynəlxalq və regional təşkilatların işində əməkdaşlıq çərçivəsində həyata keçirilib. İkitərəfli münasibətlərin genişlənməsində ümummilli lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Cənab İlham Əliyevin mühüm rolu var. 2007-ci ildə Azərbaycan Respublikasının Qırğızıstanda səfirliyinin açılması, 18 yanvar 2008-ci ildə isə Qırğızıstanın Azərbaycana yeni səfir təyin etməsi deyilənlərə sübutdur. Azərbaycanla Qırğızıstan arasında cari ilin 20 aprel tarixində imzalanmış strateji tərəfdaşlıq haqqında bəyannamə yüksək əməkdaşlığa köklənir. "Azərbaycan Respublikası və Qırğız Respublikasının Dövlətlərarası Şurasının yaradılması haqqında Memorandum"u Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarovun imzalaması isə olduqca xüsusi əhəmiyyətə malikdir. İmzalanan sənədlərin müxtəlif sahələri əhatə etməsi, dövlət idarəçilik akademiyaları, televiziya və radio verilişləri yayımları, kənd təsərrüfatı, iqtisadiyyat, maliyyə, rabitə və informasiya-kommunikasiya texnologiyaları, hava əlaqəsi, əqli mülkiyyətin qorunması sahəsində anlaşma və əməkdaşlıq haqqında memorandum və sazişlərin gələcəkdə ikitərəfli tərəfdaşlıq münasibətlərinin daha da yeni mərhələyə qədəm qoymasına gətirib çıxaracaq. Əminliklə deyə bilərik ki, dövlət başçısı İlham Əliyevin uğurlu xarici siyasəti nəticəsində əməkdaşlığın səmərəliliyini artıran amillər daha da diqqətə alınacaq, iki xalq arasında dostluq və əməkdaşlıq bağları daha da möhkəmləndiriləcəkdir. Dünyamız ancaq sülh və əminamanlıq şəraitində daha da inkişaf edə və təhlükəsiz ola bilər. Dövlətlər bir-birinə faydalı olmaqla yanaşı, dünyanı təhlükəyə atan, dövlətlərin və insanların gələcək talelərinə təhdid yaradacaq əməllərdən və süni münaqişələrdən qaçmalıdırlar. Azərbaycan beynəlxalq hüququn bütün norma və prinsiplərinə daim sadiq qalaraq, dostluğa əsaslanan ikitərəfli və çoxtərəfli münasibətlərini, həmçinin beynəlxalq təşkilatlardakı layiqli təmsilçiliyini bundan sonra da uğurla davam etdirəcəkdir.

Sevindirici haldır ki, bu gün Azərbaycan-Qırğızıstan münasibətləri keyfiyyətcə yeni səviyyəyə çatıb. Bütün bu amillər, eləcə də dövlət başçılarının uzun illər ərzində uğurlu xarici siyasi kursunun əhəmiyyətli nəticələri hər iki dövlətin və xalqların daha da yaxınlaşmasına səbəb olub. Əlaqələrimiz dinamik və səmərəli inkişaf etməklə, gələcək perspektivdə daha da məqsədəuyğun nəticələrə zəmin yaradır.

***Zümrüd BAYRAMOVA***

# Uşaqlar bu qidaları MÜTLƏQ QƏBUL ETMƏLİDİR

"İmmuniteti zəif olan uşaqlar infeksiyaya daha tez yoluxurlar. XXI əsrdə çox qlobal problemlər baş verir və bu, bütün dünyanı əhatə edir. Bu problemlərdən biri də valideynlərin məsuliyyətsizliyidir. Bu məsuliyyətsizlik ucbatından uşaqlar da zərər görürlər". Bu sözləri SİA-ya açıqlamasında qida üzrə baş mütəxəssis Ağa Salamov deyib.



Onun sözlərinə görə, valideynlərin uşaqların qidalanmasına nəzarət etməməsi, pediatrlarla sıx əlaqədə olmaması böyük bir problemdir: "Sosial şəbəkələrdə vaxt keçirən valideynlərin sayı uşaqlarına ciddi nəzarət edən valideynlərin sayından daha çoxdur. Uşaqlar mövsümü meyvələrin və tərəvəzlərin püreləriylə qidalanmalıdır. Bu meyvə-tərəvəzlərin lifləri uşaqların həzm sistemini yaxşılaşdırır, həmçinin tərkibində olan piqmentlərin və mikroelementlərin sayəsində onların immun sistemi güclənir və bərpa olunur. Lakin günümüzdə valideynlər özləri övladlarına qazlı içkilər təklif edirlər. Bu, valideynlə uşaq arasındakı yaxşı münasibəti göstərmir".

Mütəxəssis sözlərinə davam edərək bildirib ki, valideynlər qazlı suyun uşağa xeyli ziyanı olduğunu düşünmürlər: "Onu içməkdənsə, diri su içmək lazımdır. Uşaqlara mütəmadi şəkildə süzülmüş su, meyvə və tərəvəz şirələri verilməlidir. Eyni zamanda, uşaqların qidalanmasında tam buğda unundan hazırlanmış çörək, qırmızı ət məhsulları, balıq, toyuq kimi məhsullar olmalıdır. Bu cür heyvan mənşəli yeməklər mütləq şəkildə heyvan mənşəli yağlarda bişirilməlidir. Trans yağda bişən yeməklər uşaqlar üçün birmənalı olaraq faydasız sayılır və onların immun sistemini zəiflədir. İstər ət məhsulları, istərsə də meyvə-tərəvəzlər yerli məhsullar olmalıdır. Bunlar orqanizm üçün daha çox faydalıdır.

İnfeksion xəstəliklərin yayılmasının əsas səbəblərindən biri də xəstə insanların maska taxmamasıdır. İctimai yerlərdə xəstəlik daşıyıcılarının maska taxması mütləqdir.

Bir sözlə, valideynlər uşaqlarına ciddi nəzarət etməlidir. Uşaqlara göyərtilər, ağartı məhsulları verilməlidir. Bunlar hamısı şərtdir və qida rasionuna mütləq əlavə olunmalıdır. Süni qidalardan uzaq durmaq lazımdır. Pediatrlarla məsləhət olunaraq yumurtanın, ağartı məhsullarının və s. miqdarı bəlli edilərək uşaqların istehlakına şərait yaradılmalıdır".

***Ləman Əlizadə***

# "Rus sülhməramlıları elə də böyük səlahiyyətlərə malik deyillər"

"Laçın-Xankəndi yolunda, artıq bir aydan çoxdur ki, davam edən dinc aksiya bir neçə baxış bucağından mühüm tarixi hadisə kimi qiymətləndirilmədir. Ekofəalların, QHT nümayəndələrinin, azad könüllü dəstələrin birgə aksiyada mətanətlə, dözümlə iştirakı isə təqdirəlayiqdir". Bunu "Səs" qəzetinə açıqlamasında politoloq Elşən Manafov deyib.



Onun sözlərinə görə, aksiya iştirakçıları Azərbaycana münasibətdə ekoloji terrorun dayandırılmasını, Qarabağda məlum mədənlərin qeyri-qanuni istismarına son qoyulmasını, bu mədənlərin durumu ilə bağlı Azərbaycan tərəfinin monitorinq keçirmək haqqının tanınmasının, nəhayət, Laçın dəhlizinə nəzarətin gücləndirilməsini tələb edirlər: "Ancaq bunlarla bağlı bölgədəki rus sülhməramlıları elə də böyük səlahiyyətlərə malik deyillər. Rəsmi Bakı bəlli kanallarla mövcud problemlərin həllini öz üzərinə götürsə, daha məqsədəmüvafiq olar".

***Gülyana***

# 20 Yanvar - milli iradəmizin zəfər çaldığı gün




***2021-ci il yanvarın 19-da Prezident İlham Əliyev rəsmi "Facebook" səhifəsində 20 Yanvar faciəsinin 31-ci ildönümü ilə bağlı paylaşım edib. Paylaşımda "20 Yanvar milli iradəmizin zəfər çaldığı gün" sözləri qeyd edilib. Bəli, bu gün xalqımız tariximizə faciəli gün kimi daxil olsa da, 20 Yanvar milli iradəmizin zəfər çaldığı gündür.***

Çünki 20 Yanvarı və bu faciədə canını fəda edən şəhidlərimizi artıq 3-cü ildir ki, tam fərqli şəkildə anırıq. 30 il qəm-qüssə, kədərlə, ürəkağrısı ilə andığımız bu gün bu dəfə hər birimizdə fərqli bir hisslər oyatdı. Xalqımız vətənpərvər övladlarının xatirəsini yad etmək üçün Şəhidlər xiyabanına başıuca, üzüağ gedir. 20 Yanvar şəhidlərimizi bu dəfə kədər, qəm qüssə ilə yox, fəxarətlə, qürurla yad etdik. Biz sübut etdik ki, şəhidlərimizin qanı bahasına başa gələn azadlığımız, istiqlaliyyətimiz əmin əllərdədir. Çünki biz xoşbəxt və qəhrəman xalqıq ki, şəhidlərimizin qisasını ala bildik. Vaxtilə 20 Yanvar faciəsinin katalizatoru olan Dağlıq Qarabağ münaqişəsinə artıq son qoyulub. Müstəqil Azərbaycan dövləti bu gün tarixində ən güclü dövrünü yaşayır.

Bu il Şəhidlər xiyabanına ziyarət edənlər arasında gənclərimiz daha çoxdur və həmin gənclərin çoxu ömründə heç Qarabağ torpağını görməyib. O gənclər ki, vüqarımız olan Şuşanı dişləri, dırnaqları ilə vuruşa-vuruşa düşməndən geri aldılar. Bütün nəsillərin böyük qələbəmizdə zəhməti, payı olsa da, sözsüz ki, düşmənə döyüş meydanında ən böyük zərbəni Azərbaycan gəncləri vurdu. Heydər Əliyev məktəbinin, İlham Əliyev idarəçiliyinin yetirmələri olan gənclərimiz çox vətənpərvərdirlər. Azərbaycan gəncləri Vətən torpaqlarını azad etmək üçün fədakarlıq, qəhrəmanlıq nümunələrinə çevrildilər. Həmin gənclərin 20 Yanvar şəhidlərini ziyarəti fərqli bir atmosfer, təntənə, vəhdət yaratdı.

Məhz buna görə də Qalib Prezidentimiz İlham Əliyev cənablarının dediyi kimi: "20 Yanvar milli iradəmizin zəfər çaldığı gün"dür.

Bəli, 20 Yanvar milli qürurumuzun şərəf salnaməsidir. Çünki bir qərinəyə yaxın vaxt ötür həmin tarixdən. 33 ildir xalqın yaddaşına əbədi həkk olunan bu tarix Azərbaycanı müstəqilliyə aparan yolda yeni mərhələnin başlanğıcı sayılır. 20 Yanvar faciəsi Azərbaycan xalqı üçün təkcə böyük faciə deyildir. O, milli ləyaqətini qorumaq üçün hər cür qurban verməyə hazır olan xalqın tarixində şərəfli səhifədir. O gün tariximizə həm umumxalq faciəsi, həm də müstəqillik, istiqlal və hürriyyət uğrunda xalqımızın apardığı milli-azadlıq hərəkatının zirvəsi kimi qiymətləndirilir.

20 Yanvar faciəsi ilk növbədə siyasi maraqlar naminə Azərbaycan xalqına qarşı törədilmiş cinayətdir. Milli maraqlara zidd addımlar atan Azərbaycanın o zamankı rəhbərlərinin istefası tələbinin irəli sürülməsinə və xalqın qətiyyətlə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinə qarşı çıxmasına görə Azərbaycanı cəzalandırmaq üçün Kreml qanlı Yanvar qırğınını törətdi. Və çoxu ermənilərdən olan rus qoşun hissələri yanvarın 19-da saat 21:00-dan etibarən Türkan-Qala tərəfdən şəhərə yeridildi. "Bakı əməliyyatı"na rəhbərliyi birbaşa SSRİ müdafiə naziri Dmitri Yazov, SSRİ daxili işlər naziri Vadim Bakatin, SSRİ DTK sədrinin müavini Filip Babkov həyata keçirirdilər. Fövqəladə vəziyyətin tətbiqi əhaliyə elan olunanadək hərbi qulluqçular artıq 82 nəfəri amansızcasına qətlə yetirmiş, 20 nəfəri ölümcül yaralamışdılar. Kütləvi insan qırğını törədildikdən sonra - yəni 20 yanvar 1990-cı il səhər saat 5:30-da radio vasitəsilə Bakı şəhər komendantı V.Dubinyak fövqəladə vəziyyət tətbiq edildiyi barədə rəsmi məlumatı efirə vermişdir. Halbuki yanvarın 20-də saat 00-00-dan başlanmış hərbi əməliyyatlarda tanklardan və müxtəlif təyinatlı zirehli döyüş maşınlarından istifadə edilmiş, Xəzər Hərbi Donanmasına məxsus gəmilərdən şəhərə desant çıxarılmışdı. Fövqəladə vəziyyət elan edildikdən sonra isə yanvarın 20-də və sonrakı günlərdə Bakı şəhərində 21 nəfər öldürülmüşdür.

Qanlı Yanvar hadisələrinin coğrafiyası təkcə Bakı şəhəri ilə məhdudlaşmadı. Fövqəladə vəziyyətin elan olunmadığı rayonlarda yanvarın 25-də Neftçala, yanvarın 26-da Lənkəranda 8 nəfər qətlə yetirilmişdi. Ümumilikdə respublikada 147 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs olunmuş, 200 ev və mənzil, 80 avtomaşın, o cümlədən təcili yardım maşınları, dövlət əmlakı və şəxsi əmlak məhv edilmişdir.

Faciə ilə əlaqədar ilk rəsmi etiraz ulu öndər Heydər Əliyev tərəfindən oldu. Heç bir təhlükədən çəkinməyərək sovet hakimiyyətinin bu əməlinə etiraz edən Ümummilli Lider Azərbaycan xalqının başına gətirilən qanlı faciəyə ilk siyasi-hüquqi qiymətini verdi. Ulu öndərin təşəbbüsü və göstərişləri ilə 1994-cü ilin mart ayının 29-da Milli Məclis "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" Qərar qəbul etdi. Ümummilli lider Heydər Əliyev dövrün mürəkkəbliyinə rəğmən, 20 Yanvar faciəsinin başvermə səbəblərinin və günahkarların araşdırılması ilə də məşğul oldu və bunun nəticəsində həqiqətlər üzə çıxdı. Beləliklə, 20 Yanvar faciəsi məhz Ulu Öndər Heydər Əliyevin prinsipial və ardıcıl mübarizəsindən sonra öz hüquqi-siyasi qiymətini aldı.

Bu gün isə, ulu öndərin layiqli davamçısı Prezident İlham Əliyev 20 Yanvar şəhidlərinin xatirəsinin uca tutulmasına, şəhid ailələrinin sosial məsələlərinin yoluna qoyulmasına xüsusi diqqət göstərir və bu gün də humanist siyasətini davam etdirir.

Bir sözlə, 33 ildir ki, Bakının ən yüksək yerində hər bir azərbaycanlı, eyni zamanda biz gənclərçər üçün müqəddəs and yerinə çevrilmiş bir ünvan var. Bu, 20 Yanvar faciəsi qurbanlarının və Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olanların dəfn edildiyi Şəhidlər xiyabanıdır. Artıq 3 ildir Şəhidlər xiyabanında uyuyan qəhrəmanlarımızın ruhları da şaddır. Çünki qanları yerdə qalmayıb. İndi həmin müqəddəs məkana üz tutan hər bir azərbaycanlı, hər bir gənc məzarlar önündə mətin dayanaraq ona müstəqillik qazandıran ölməz qəhrəmanların ruhlarına dualar oxuyur. Hər kəs qürurludur, şəhidlərin isə ruhları şaddır. Çünki azadlığı, müstəqilliyi uğrunda canını fəda etdiyi ölkə bu gün tarixinin ən qüdrətli dövrünü yaşayır.

***FUAD HEYDƏR,***
***YAP Səbail rayon təşkilatının təlimatçısı***

# Qərb "Asiya NATO-su"na qarşı

***ABŞ və Böyük Britaniya Yaponiya ilə birlikdə Çinlə qarşılaşmaq üçün NATO-nun Asiya analoqunu yaradır. Xarici mənbələrin yazdığına görə, Rusiyanın Ukrayna nümunəsi göstərdiyi kimi, bu gün ölkələr rəqibləri ilə təkbətək mübarizə aparır. Bu da Pekini təhdid edir. Bununla belə, sual qalır: ABŞ eyni vaxtda iki cəbhədə vuruşa biləcəkmi?***



## *Şərqi Asiya qaynar qazana dönür*

Qərbin Şərqi Asiyadakı hərbi-siyasi fəaliyyətini yaxından izləyənlər görəcəklər ki, məsələn, Yaponiya birdən-birə Çinə qarşı qiyam qaldırdı. O, əvvəllər qonşusuna açıq şəkildə qarşı çıxmamışdı, necə ki, Pekin yaponlar tərəfindən dostcasına hərəkət kimi qiymətləndirilə biləcək heç bir iş görmədi. Yaponiyanın xarici işlər və müdafiə nazirləri bu yaxınlarda Çinin "görünməmiş" strateji problem yaratdığını bildiriblər. Tokio Vaşinqtonun Sakit okean regionunda təsirini artırmaq niyyətini alqışlayır və onun ərazisində Amerika hərbi mövcudluğunun genişləndirilməsi ilə bağlı məsləhətləşmələri davam etdirməyə hazırdır.

Yaponiyanın xarici işlər naziri Yoşimasa Hayaşi bildirib ki, Tokio Pekinin Tayvanla bağlı mövqeyini dəstəkləmir və Tayvan boğazında sülh və təhlükəsizliyin qorunmasının tərəfdarıdır. O, həmçinin Şimali Koreyanın raket sınaqlarını pisləyib və BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq Koreya yarımadasının tam nüvəsizləşdirilməsinə sadiqliyini təsdiqləyib. Bu, Yaponiyanın ABŞ-ın Şərqi Asiya strategiyasının əsas istiqamətlərini izlədiyini bir daha təsdiqləyir.

Yaponiyanın təhlükəsizliyi və müdafiəsi üçün rekord müddətdə qəbul edilmiş yeni doktrina Tokionun İkinci Dünya Müharibəsində məğlubiyyətdən sonra sadiq qaldığı sənədlə tamamilə ziddiyyət təşkil edir. Nazirlər Kabineti ölkənin müdafiə büdcəsini təsdiq edib və bu büdcə son on ildə rekord həddə çatıb.

Qərb isə öz növbəsində Yaponiya, Cənubi Koreya, Cənubi Çin dənizi dövlətlərinin əksəriyyəti (Filippin və Vyetnam) və Tayvan adası kimi Çinə qarşı olan Asiya ölkələri ilə ittifaqlar yaratmağa çalışır. Təbii ki, amerikalılar və bütövlükdə Qərb Ukraynanın səhvlərini təkrarlamaq istəmir. İştirakçı ölkələrin Ukrayna münaqişəsinə birbaşa müdaxiləsinə mane olan heç bir Qərb alyansının (nə NATO, nə də Avropa İttifaqının) üzvü deyil. Bunun heç bir hüquqi əsası yoxdur. NATO Nizamnaməsinin 5-ci maddəsi üzvündən tərəfin silahlı təcavüzünə məruz qalan alyansın hər hansı üzv dövlətinə hərbi yardımın göstərilməsini nəzərdə tutur. Ona görə də Qərb Kiyevi yalnız qabaqcıl silahlar və canlı qüvvə ilə təmin edə bilərdi, lakin öz qüvvələrini Rusiya ordusu ilə qarşıdurmaya göndərməkdən imtina etdi.

Birləşmiş Ştatlar Asiya ölkələri ilə əlaqələri gücləndirir və məsələn, Yaponiya ilə qarşılıqlı müdafiə müqavilələri bağlayır. Növbəti sırada Tayvan gəlir. Əsas məqsəd bu bölgəyə genişmiqyaslı müdaxilə üçün hüquqi bazanın olmasıdır. Bu işdə onlara Çinlə müharibə aparan Asiya ölkələri ilə qarşılıqlı müdafiə müqavilələri kömək edəcək (Yaponiya və Tayvan bunun iki parlaq nümunəsidir).

Digər tərəfdən, amerikalılar və ingilislər bölgədə hərbi varlığını artırmaq üçün diqqətli olmalıdırlar. Cənubi Koreya, Filippin, Quam və digər Sakit Okean adalarında yerləşdirilən on minlərlə əsgəri nəzərə almasaq, artıq Şərqi Asiya və Sakit okeanın şimal-şərqində onlarla hava və dəniz bazası yerləşdirilib. Birləşmiş Ştatlar həmçinin Sakit Okeanın şimal-qərbində, Cənubi Çin və Yaponiya dənizlərində və Tayvan boğazında fəal şəkildə hərbi güc qurur. Hazırda onları qorumaq üçün bir neçə təyyarədaşıyıcı və gəmi artıq oradadır.

**Bu hərbi birləşmənin səbəbləri nədir? Dünyanın bu həssas regionunda qarşıdurmanın perspektivləri necədir?**

Belə görünür ki, Qərbdə, daha doğrusu, amerikalılarda Çinin Tayvana qarşı xüsusi əməliyyat (əvvəl siyasi, sonra isə hərbi yolla) hazırladığı barədə etibarlı məlumat var. Qərb tədqiqat mərkəzlərinin və kəşfiyyat agentliklərinin etibar etdiyi qarşıdurma simulyasiyalarının bütün qiymətləndirmələri və nəticələri Çinin qismən də olsa uğurundan və gözlənilən toqquşmaların əksəriyyətində ABŞ və müttəfiqlərinin böyük itkilərindən danışır.

Bu baxımdan, Amerikanın başçılıq etdiyi Qərb ölkələri qarşıdurma simulyasiyalarının nəticələrinə əsasən, öz hərbi mövcudluğunu maksimuma çatdırmaq və hazırda kifayət qədər olmayan regionda mövcud hərbi kontingenti ikiqat artırmaq niyyətindədirlər. Digər tərəfdən, Şərqi Asiya ölkələri (əksəriyyəti, amma hamısı deyil) Avropa dövlətlərinin (xüsusən də Şərqi Avropanın) Rusiyaya qarşı müttəfiqliyi ilə eyni səbəblərə görə Çinə qarşı Amerika ilə müttəfiqlik edir. Amerika təbliğatının onlara güclü təsiri var. Birləşmiş Ştatlar əvvəllər Avropa ölkələrinin liderləri ilə olduğu kimi, onları Çindən, onun iqtisadi və siyasi "hegemonluğundan" qorxutmaq, onlara Rusiyanın siyasi, hərbi və iqtisadi üstünlüyü qorxusu aşılamaq istəyir.

"Asiya NATO-su" Şimali Atlantika Alyansının analoqudur. Buradan belə nəticəyə gəlmək olar ki, Amerika ilə onun bir tərəfdən Asiya və Qərb müttəfiqləri, digər tərəfdən isə Çin arasında qarşıdurma uzaqda deyil. Və burada əsas sual yaranır: əgər bir tərəfdən ABŞ və onun müttəfiqləri, digər tərəfdən Çin, digər tərəfdən qarşıdurma yaxınlaşırsa, onda niyə Rusiya, İran və Şimali Koreya nəzərə alınmır?

Nəticələrin çoxu Ukraynada Rusiya ilə NATO arasındakı qarşıdurmadan və Moskvanın tərəfdaşları olmadan özünü necə aparmasından çıxarılıb. Çin və Qərbi Asiya alyansı arasında qarşıdurma ehtimalının yüksək olduğunu nəzərə alsaq, Pekinin də təkbaşına mübarizə aparacağı qənaətinə gəlmək olar. Səbəb digər ölkələrin müttəfiqlərinin münaqişə tərəflərinə qoşulacağı təqdirdə, şübhəsiz ki, baş verəcək qlobal böhrana qarışmaq istəməməsindədir.

Vaşinqton yalnız bir tərəflə - Rusiya (bu gün baş verir) və ya Çinlə (yaxın gələcəkdə baş verəcək) qarşıdurmaya hazırdır. Amerikanın başçılıq etdiyi Qərb bir şeyə əmindir: Vaşinqtonun öz mülahizəsinə uyğun olaraq müəyyən etdiyi Avropa və ya Asiyada "qırmızı xətləri" keçən tərəflə qarşı-qarşıya gələk.

***V.VƏLİYEV***

# Fəxri ad təqaüdləri razılıqla qarşılandı

***“Fəxri adlara görə aylıq təqaüdün məbləğinin artırılması və "Fəxri adlara görə aylıq təqaüdün verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 4 iyul tarixli 878 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 13 yanvar 2023-cü il tarixdə imzaladığı Sərəncamı fəxri ad daşıyan yüzlərlə ölkə vətəndaşı tərəfindən böyük razılıq və minnətdarlıq hissi ilə qarşılandı.***

Sərəncamla fəxri adlara görə aylıq təqaüdün məbləği 2023-cü il yanvarın 1-dən xalq yazıçısı, xalq şairi, xalq artisti və xalq rəssamı üçün 200 (iki yüz) manat, əməkdar elm xadimi, əməkdar incəsənət xadimi, əməkdar artist, əməkdar rəssam, əməkdar mədəniyyət işçisi, əməkdar müəllim, əməkdar həkim, əməkdar memar, əməkdar bədən tərbiyəsi və idman xadimi, əməkdar dövlət qulluqçusu, əməkdar jurnalist, əməkdar mühəndis, əməkdar hüquqşünas, əməkdar kənd təsərrüfatı işçisi, əməkdar pilot, əməkdar tibb işçisi üçün 150 (yüz əlli) manat müəyyən edildi.

Çalışdığı sahədə, ölkənin ictimai-siyasi həyatında fərqlənən insanların xüsusi qayğı ilə əhatə olunmasının təməli Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulmuşdur. Ölkəmizə hər iki rəhbərliyi dövründə fəxri adların təsis edilməsini və buna görə təqaüdlərin təyin olunmasını daim diqqətdə saxlayan ulu öndərin fəaliyyətində insan amili həmişə xüsusi yer tutub. Bu səbəbdən də ölkəmizin inkişafında fərqlənən insanların zəhməti daim qiymətləndirilir.

Bu gün də həmin siyasət davam etdirilməklə yanaşı, həm də fəxri adlara görə təqaüdlərin məbləği tez-tez artırılır, dünyada baş verən və ölkəmizdən yan keçməyən inflyasiyaya uyğunlaşdırılır. Bu günlər ölkədə minimum əmək haqqlarının, pensiyaların, sosial müavinətlərin, bəzi dövlət qurumlarında çalışan işçilərin əmək haqlarının artırılması haqqında ölkə rəhbərinin sərəncamları vətəndaşlar tərəfindən razılıqla qarşılanmışdır. Həmçinin fəxqi adlara görə təqaüdlərin artırılması da fəxri ad daşıyanlar tərəfindən minnətdarlıq hissi ilə qarşılandı.




### Postpandemiya və postmüharibə ölkəsindən vətəndaşına daha bir qayğı

Hazırda bütün dünya dövlətləri hələ də pandemiyanın vurduğu iqtisadi çətinliklər mənqənəsindən çıxış yolu axtarmaqdadırlar. Təbii ki, koronavirus pandemiyasının yaratdığı ağır böhran ölkəmizdən də yan keçməyib. Hələ üstəlik bizim ölkəmiz pandemiya dövründə müharibə şəraitində də yaşamalı olub. Bütün dünya bir virusla-düşmənlə mübarizə apardığı təqdirdə, Azərbaycan eyni zamanda iki düşmənlə koronavirusla və erməni adlı düşmənlə mübarizə aparmalı oldu.

Müharibənin isə öz qanunları var. Təbii ki, hər hansı bir ölkədə müharibə baş verirsə, bu, böyük iqtisadi tənəzzüllə nəticələnir. Çünki müharibənin gedişi milyonlarla manat vəsait hesabına reallaşır.

Azərbaycanın 30 illik bir zaman kəsiyində torpaqlarının 20 faizdən çoxunu işğal altında saxlayan və 2020-ci ilin sentyabr ayında yeni torpaq iddiaları meydana çıxan Ermənistana qarşı müharibəyə başlamasının pandemiya dövrünə təsadüf etməsi ölkəmizin iki düşmənlə eyni zamanda mübarizə aparacağını ortaya qoydu. Beləliklə də biz cəbhədə ermənilərlə, ümumi həyatımızda isə koronavirus pandemiyası ilə mübarizə aparmalı olduq. Ölkəmizin son 20 ildə iqtisadi inkişafı, gələcəyə hesablanmış prioritetlər nəticəsində Azərbaycan hər iki düşmənlə mübarizədə qalib gəldi. Cəbhədə minlərlə şəhidimiz olsa da, minlərlə övladımız sağlamlığından keçib qazi olsa da, minlərlə vətəndaşımız koronavirus pandemiyasının qurbanı olsa da, lakin böyük və tarixi Zəfərimizin, 30 il işğal altında qalan torpaqlarımızın azadlığının sevinci təsəllimiz oldu. Biz qalib olduq. Torpaqlarımız doğmasına-Azərbaycanımıza qaytarıldı. Dünyanın bir çox inkişaf etmiş dövlətləri ilə müqayisədə isə karanovirusdan dünyasını dəyişənlər bizdə onlardan qat-qat az oldu. Çünki ölkəmizin iqtisadi gücü və vətəndaşına xüsusi qayğısı var.

Elə postpandemiya və postmüharibə dövründə minimum və əmək haqlarına, pensiyalara, sosial ödənişlərə, tələbən təqaüdlərinə, hətta fəxri ad təqaüdlərinə artımların olması, bütün bunların qonşu və region dövlətlərdə olduğundan fərqli məbləğə çatdırılması bir tərəfdən dövlətimizin vətəndaşına qayğısını təsdiqləyirsə, digər tərəfdən də iki ağır döyüşdən çıxmasına baxmayaq iqtisadi gücümünü göstərir.

### Hər birimizin Prezidenti

Fəxri ada görə təqaüd alan jurnalistlərdən biri kimi mən də dövlətimizin başçısının bütün artımlar, eləcə də fəxri adlara görə təqaüdün artırılması ilə bağlı sərəncamlarını böyük razılıqla qarşılayıram. Həqiqətən də arxada qalan uzun illər göstərdi ki, cənab İlham Əliyev hər bir vətəndaşımızın Prezidenti oldu. İnsanlara ayrı-ayrılıqda qayğısı, yanaşması, yanlarında olması ilə illər öncə verdiyi vədi təsdiqlədi. Biz ölkəmizin rəhbərini hər il doğum günündə şəhid ailələri ilə, əsgər və zabitlərimizlə, qaçqın və köçkülərimizlə birlikdə görürüksə, bəli, cənab Prezident dediyi kimi, bizim hər birimizin Prezidenti ola bildi. Qayğımıza qalanımız, təsəlli verənimiz, arzularımızı reallaşdıranımız oldu. Bütün xalqı dəmir yumruğu ətrafında birləşdirib Qarabağ Zəfərini bizə görməyi nəsib etdiyi kimi.

Bu gün biz jurnalistlər qürur duyuruq ki, çağdaş dövrümüzün tarixini, salnaməsini yazanlardanıq. Xoşbəxtik ki, cənab İlham Əliyevin rəhbərliyi altında Milli Ordumuzun Qarabağda keçirdiyi hərbi əməliyyatları izləmək bizə nəsib oldu. Onların hər birindən ayrı -ayrılıqda yazmaq, reportaj hazırlamaq bizə qismət oldu.

Bu gün müəllimlərimiz də xoşbəxtdirlər ki, gənc nəslə Qarabağın işğalından deyil, azadlığından söhbət açırlar. Dövlətimizin başçısının torpaqlarımızın işğaldan azad olunması, ərazi bütövlüyümüzün bərpası üçün uzun illər apardığı tədbirlərdən danışırlar. 30 il əvvəlki ölkə rəhbərləri ilə bu gün ölkəmizə rəhbərlik edən liderimizin fərqli cəhətlərindən söhbət açırlar.

Bu gün müəllimlərimiz kimi, həkimlərimiz də xoşbəxtdirlər. Çünki onlar müstəqilliyimizi, sərhədlərimizi, torpaqlarımızı qoruyan, ölkəmizin inkişafında ayrı-ayrı sahələrdə fəaliyyət göstərən vətəndaşlarımızın sağlamlığının keşiyindədirlər.

Xalq yazıçılarımız, xalq şairi, xalq artisti və xalq rəssamlarımız, əməkdar elm xadimi, əməkdar incəsənət xadimi, əməkdar artist, əməkdar rəssam, əməkdar mədəniyyət işçilərimiz qürur duyurlar ki, bu gün hər biri öz sahəsində Qarabağın azad obrazını yarada bilirlər. Ölkəmizin inkişafından, dünyada böyük nüfuz sahibi olmasından danışa, yaza bilirlər. Onu rəsm əsərlərinə köçürə bilirlər. Səhnələrdə göstərə bilirlər. Şeirlərdə, mahnılarda yaşada bilirlər.

Və həm də zəhməti ilə fəqlənən bu insanların hər biri layiq olduğu fəxri ada görə təqaüdünün artırılması üçün də qürur duyur. Birinci, ona görə ki, yüksək dövlət qayğısını hiss edirlər. İkinci, ona görə ki, ölkədə hər iş öz axarınca gedir. Biz müharibədən yenicə çıxdığımıza baxmayaraq həm Qarabağımız yenidən bərpa olunur, həm də vətəndaşların sosial rifah halı diqqətdə saxlanılır. Vətəndaş rifahı üçün hər addım öz zamanında və vaxtında atılır. Elə buna görə də hər kəs öz lideri-ölkə başçısı ilə qürur duyur.

***Mətanət Məmmədova***

# Bakıda hansı ərazilərdə mənzil qiymətləri əl yandırır?



**“Bakıda əmlak qiymətləri onun yerləşdiyi əraziyə görə dəyərləndirilir. Ona görə də alıcılar adətən əmlaka ayırdıqları pula görə özləri öz rayonlarını seçirlər. Çünki onlar yaxşı bilirlər ki, onların Günəşlidə 3 otaqlı mənzilə ayırdıqları pula Sahildə 1 otaq da almaq mümkün deyil. O səbəbdən alıcılar öz büdcələrinə uyğun yer seçirlər”. Bu sözləri SİA-ya açıqlamasında daşınmaz əmlak üzrə ekspert Anar Nəsirov deyib.**

Onun sözlərinə görə, Bakıda evlərin və obyektlərin qiymətləri əraziyə uyğun qiymətləndirilir: ”Belə ki, Bakı şəhərində ən baha mənzillər və obyektlər Səbail rayonuda yerləşir. Bu rayonda mənzillərin qiyməti köhnə tikili evlər üçün 1 kv 3500 azn, 6000 AZN qədər dəyişir. Bu dəyişmənin səbəbi kimi demək olar ki, Bulvara baxan mənzillərin qiyməti başqa, Nizami küçəsinə baxan mənzilin qiyməti başqadır. Ona görə mənzilin yerləşdiyi küçə çox önəmlidir. Çünki mənzilin dəyəri onun hansı küçədə olmasından asılıdır”.

Anar Nəsirov sözlərinə belə davam edib: ”Adətən ən bahalı mənzillər Səbail rayonu Neftçilər prospektində dəniz və Bulvar görünüşü olan tarixi arxitektor üslubda tikilən evlərdir. Bu binalarda 3 otaqlı 80 kv sahəsi olan bir mənzilin dəyəri orta hesabla 450000-650000 AZN-dır. Təmirindən və evin yerləşdiyi mərtəbədən asılı olaraq isə qiymət dəyişir. Ən bahalı obyekt isə yenə də Səbail rayonunda yerləşir. Belə ki, Tarqovu kimi tanıdığımız (Nizami küçəsində) orta hesabla ticarət obyekti onun yenə dəyərlədiyi yerə uyğun olaraq 1 kv 30000 AZN - 43000 AZN- dək dəyişir. Bundan başqa Səbail rayonu əmlak alqı satqısı zamanı verilən vergi xəritəsində də, ən çox vergi tutulan 1 nömrəli yerdir. Bir sözlə demək olar ki, Səbail rayonu çox bahalı ve elit yer hesab edilir.

Bundan sonra gəlir Nəsimi rayonu bu rayon da Səbail rayonundan sonra ən bahalı yer hesab edilir. Çünki Tarqovu (Nizami), Xəqani, Nefçilər və Bulvar görünüşlü mənzillərin bir hissəsi məhs bu rayonun ərazisinə düşür. Əmlak zamanı tutulmuş verginin siyahısında isə çox vergi tutulan xəritədə isə 2-ci yer məsələn Nəsimi rayonunun mərkəzi hissəsi olan Səməd Vurğun parkının dənizə tərəf yerləridir. Bundan sonra ən bahalı yerlər siyahsında Nizami və Nərimanov metrosu əraziləridir. Bu rayonlar da Səbail və Nəsimi rayonlarından sonra ən bahalı əmlakların satıldığı 3-cü yerdədir.

Bakıda ən bahalı rayon kimi Səbail rayonunu qeyd etdik. İndi isə ən ucuz əmlakın satıldığı rayonu qeyd etmək istəyərdim. Bakı şəhərdə yerləşən rayonları ümumi götürsək, ən ucuz əmlak satılan rayon Xəzər rayonudur”.

***Ayşən Vəli***




# Xalqımızın hüzn və şərəf günü

***Tariximizin hər bir səhifəsi bizin üçün əzizdir, önəmlidir. Günümüzün əsas çağırışlarından biri tariximizin öyrənilməsi və gələcək nəsillərə çatdırılmasıdır. Öyrənilməsi, əsl mahiyyəti ölkə və dünya ictimaiyyətinə çatdırılması vacib olan hadisələrdən biri də 33-cü ildönümünü qeyd etməyə hazırlaşdığımız 20 Yanvar hadisəsidir.***

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi Mixail Qorbaçovun əmri ilə SSRİ Müdafiə Nazirliyi, Dövlət Təhlükəsizlik Komitəsi və Daxili İşlər Nazirliyinin qoşun hissələri Bakıya və Azərbaycanın bir neçə rayonuna yeridilib, dinc əhali ağır texnikadan və müxtəlif tipli silahlardan atəşə tutularaq kütləvi qətlə yetirilib. Sovet ordusunun xüsusi təyinatlı dəstələrinin və daxili qoşunların iri kontingentinin Bakını zəbt etməsi xüsusi qəddarlıq və misli görünməmiş vəhşiliklə müşayiət edilib.

20 Yanvar faciəsini nə qədər böyük ağrı hissi ilə xatırlasaq da, xalqımızın azadlıq uğrunda mübarizə əzmini sındırmağın mümkünsüzlüyünü görəndə bundan böyük qürur hissi keçiririk. Həmin gün uzun illər imperiya əsarəti altında yaşayan xalqımız azadlığa qovuşmaq üçün canından belə keçməyə hazır olduğunu bir daha dünyaya nümayiş etdirdi. Azad, müstəqil yaşamaq, Azərbaycan xalqının ən böyük arzusu olub.

20 Yanvar hadisələrindən sonra xalq daha bir gerçəkliyin şahidi oldu. Xalqın mübarizəsini, tökülən qanı siyasi niyyətləri üçün alətə çevirən AXC-Müsavat cütlüyünün iç üzü açılmağa başladı. Belə ki, 20 Yanvar hadisələrinə siyasi qiymət verilməsi tələbi ilə dəfələrlə çıxış edən bu cütlük hakimiyyətə gəldikdən sonra bu mövzunu unutdu. Onlar hakimiyyətdə olduğu dövrdə faciəyə siyasi qiymət vermək üçün öz imkanlarından istifadə etmədilər. Dövlət başçısı İlham Əliyev Yeni Azərbaycan Partiyasının VII qurultayında bu məsələyə xüsusi diqqət yönəldərək bildirmişdi: "Nə üçün Xalq Cəbhəsi-Müsavat cütlüyü 20 Yanvar faciəsinə siyasi qiymət verməmişdir? Onların bir il vaxtı var idi. Nə üçün? Çünki onların da əli Azərbaycan xalqının qanına batmışdır. Onlar da 20 Yanvar faciəsini ört-basdır etmək istəyirdilər. Yalnız Heydər Əliyev 20 Yanvar faciəsinə siyasi qiymət verdi."

1990-cı il yanvarın 21-də Sovet rejiminin qadağalarına rəğmən, həyatını təhlükə qarşısında qoyaraq Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələn ümummilli lider Heydər Əliyev qanlı faciənin təşkilatçılarını dünya ictimaiyyəti qarşısında ittiham etdi. Cəsarətli bəyanat verərək əliyalın xalqın qırılmasını hüquqa, demokratiyaya, humanizmə zidd, Moskvanın və respublika rəhbərlərinin günahı üzündən yol verilmiş kobud siyasi səhv kimi ifşa etdi.

Bu mühüm məqamları da qeyd edək ki, Ulu Öndərin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 20 Yanvar faciəsinə ilk siyasi qiymət verən 21 noyabr 1990-cı il tarixli qərar qəbul etdi. 1993-cü ildə xalqın təkidli tələbi ilə qayıdışından sonra da bu hadisəyə hüquqi- siyasi qiymətin verilməsi əsas çağırışlar sırasında oldu. Ulu Öndərin təşəbbüsü və göstərişləri ilə 1994-cü ilin mart ayının 29-da Milli Məclis "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" Qərar qəbul etdi. Ümummilli Lider dövrün mürəkkəbliyinə rəğmən, 20 Yanvar faciəsinin başvermə səbəbləri və günahkarların araşdırılması ilə də məşğul oldu və bunun nəticəsində həqiqətlər üzə çıxdı. Ümummilli Liderin Fərmanı ilə 1998-ci ildə "20 Yanvar Şəhidi" fəxri adı təsis edilib. Onu da qeyd edək ki, ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 20 Yanvar şəhidlərinin xatirəsini əbədiləşdirmək üçün Şəhidlər xiyabanında möhtəşəm abidə kompleksi ucaldıldı. Ulu öndər Heydər Əliyevin yolunu uğurla davam etdirən Prezident İlham Əliyev də şəhidlərin xatirəsinin uca tutulmasına, şəhid ailələrinin sosial məsələlərinin həll olunmasına xüsusi diqqət göstərir. 20 Yanvar faciəsinin təfərrüatlarını hər bir azərbaycanlı bilməlidir və unutmamalıdır. Şəhidlərimizin xatirəsi daim qəlbimizdə yaşayacaq.

***Anar Nəbiyev***
***YAP Qazax rayon təşkilatının sədri***

# 33 ilin tələbəsi

***Bu sərlövhə hər kəsin diqqətini çəkə, hələ "Bu yaşda tələbə olar?",- sualını yarada da bilər. 20 yanvar 1990-cı il, 33 il bundan əvvəl Bakıda günahsız insanlara qarşı törədilmiş faciə. Zaman ötsə də, illər bir-birinə əlvida deyib tarixi bir yaş yaşlandırsa da, həmin gün ömrü tamamlananların hər biri yaddaşlarımıza o gündəki kimi həkk olunub: uşaq elə uşaqdır, heç böyüməyib, gənc heç yaşlaşmayıb, ahıl elə ahıldır, müəllim müəllim, həkimsə həkim.***




Eləcə də şəhid tələbələr. Yazı oxunduqca söhbətin həmişə xəyallarımızda Azərbaycan Tibb Universitetinin tələbəsi kimi qalan 20 Yanvar şəhidi Teymur Almәmmədovdan getdiyini biləndə hər kəsin ürəyi yenidən sızlayacaq, bu nakam tələbəni yanğı hissi ilə xatırlayacaqdır. 18 yaşda tələbə adını qazanıb, cəmi 4 ay tələbə həyatı yaşayan, 33 ilin tələbəsinə çevrilərək hər il yaddaşlarda təzələnən şəhid Teymuru Onun ömür kitabına həkk olunan və ondan bu dünyaya xatirə qalan, sadəcə bu tarixlərdir: 1972, 1989, 1990, bir də bu 33 il.

1972-də doğuldu, 1989-da arzusuna çatdı, tələbə adını qazandı, 1990-da ömrü kimi arzuları da yarımçıq qaldı. 33 ildir, şəhid olub. Lakin bu 33 ilbəil dəyişəcək, bir gün 100, 200 olacaq, Teymurun Vətən uğrunda şəhidlik salnaməsini qərinələrdən qərinələrə, əsrlərdən əsrlərə daşıyacaq.

Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Keçili kəndində kasıb bir ailədə dünyaya göz açmışdı Teymur. Valideynlərinin hər ikisi sağlamlıq imkanları məhdud insanlar idi. İki bacının bir qardaşı olan Teymur bacısı Bəstinin dediyi kimi, ata-anaları qeyri-sağlam olduqları üçün onların tək ümid yeri, arxa, dayaqları idi. Lap kiçik yaşlarından ailənin bütün qayğılarını çiyinlərində daşımaqdan vaxtından əvvəl yaşlaşmışdı sanki o. "Atamın bitib-tükənməyən tapşırıqları qarşısında nə dinər, nə danışar, başını aşağı salıb sakitcə dinləyər, sonra məktəbə gedər, gələr, axşamadək evin işindən-gücündən baş açmazdı. İşini bitirib evə girəndən gecə saatlarınadək dərs oxuyar, əlindən kitab düşməzdi. O vaxtlar kəndin malheyvanını hər gün bir nəfər çölə aparardı, atam xəstə olduğu üçün bizim evdən həmişə Teymur gedərdi, axşamdan kitablarını çöl çantasına yığıb hazırlayardı, özü ilə aparardı", - deyir Bəsti.

Keçili kənd məktəbi rayonun təhsil ənənələri olan məktəblərindəndir. Bu gün ölkəmizin ictimai həyatında mövqe qazanmış onlarla hüquqşünas, müəllim, həkim və digər ixtisas sahibləri bu məktəbin yetirmələridir. Teymurun müəllimləri onu da bu yetirmələr arasında gördüklərini hələ o aşağı siniflərdə təhsil alarkən söyləyirmişlər. Teymur təhsildə sinif yoldaşlarından fərqləndiyi kimi, səmimiyyəti, tərbiyəsi ilə də bütün müəllim və şagird kollektivinin sevimlisi imiş.

Teymurun biologiya müəllimi Vaqif Kərimov onun haqqında deyirdi: - O, tamamilə fərqli bir şagird, özünəməxsus xarakteri olan uşaq idi. Bu özünəməxsusluq onun susqunluğunda, sakitliyində, adını çəkəndə, sual verəndə adamın gözünün içinə baxmadan, başıaşağı cavab verməyində idi. Bir də ki onun üzündə-gözündə daim bir kədər var idi. Bunu müəllimlərin hamısı duymuşdu, öz aramızda söhbət edəndə baxırdım ki, hər kəs eyni fikirdədir. Bu kədəri onun ailə vəziyyəti ilə əlaqələndirirdik. Məktəbdə hamımız bilirdik ki, evdə yük Teymurun çiynindədir. Lakin sonralar, o şəhid olanda bu kədər nə kədərmiş, anladıq. Onun şəhid olmasını çox yanğı ilə qarşıladıq. Çünki Teymur sağ qalsaydı, çox gözəl, hər birimizin qürur duyduğumuz bir həkim olacaqdı.

"Sən saydığını say, gör Fələk nə sayır", - deyir atalarımız. Hər kəs Teymurun gələcəyinə böyük ümidlər bəslədiyi halda, sən demə, onun ömür payı çoxdan 1990-cı ilə nöqtələnibmiş. O müdhiş 20 yanvar gününə. Birinci imtahan sessiyasını uğurla başa vuran Teymur doğma kəndinə getmək istəyirdi. İki dostu ilə aerokassadan Naxçıvana bilet alıb geri qayıdarkən elə aerokassanın qabağındaca başından güllə yarası alır. O, xəstəxanaya gətirilir. Güllə onun əmgəyindən dəyib, üst çənəsində ilişib qalıbmış. Həkimlərin yeddi gün yaralını həyata qaytarmaq üçün səylə çalışmalarına baxmayaraq, Teymur özünə gəlmədən canını tapşırır. Şəhid tələbə bir neçə gündən sonra Keçili kənd qəbiristanlığında dəfn edilir. Bakı şəhərindəki Şəhidlər xiyabanında və Şahbuz şəhərindəki Şəhidlər Abidə Kompleksində xatirə lövhəsi var.

Teymur tək Almәmmədovlar ailəsinin deyil, bütün keçililərin yaddaşından silinməyən, unudulmaz 20 Yanvar şəhididir. O, təkcə öz ailəsinin deyil, bütövlükdə, Keçili kəndinin övladıdır. Çünki onun itkisinə bütün kənd yandı, sızladı. Günlərlə, aylarla onun xəstə valideynlərinin təsəllivericilərinə çevrildilər. Lakin bu itki onsuz da sağlamlıqları yerində olmayan atananın qəddini əydi, bu dərd onları içiniçin yeyib sonlarını gətirdi. Teymurun şəhid olmasından bir neçə il sonra bir-birinin ardınca həyatla vidalaşdılar.

Teymurun ailəsinə yaxşı yaşayışı üçün dövlət tərəfindən hərtərəfli dəstək göstərilir. Bu məqsədlə şəhid ailəsi üçün 2010-cu ildə fərdi mənzil də tikilib və hər bir şərait yaradılıb. İndi o evdə şəhidin bacısı Bəsti yaşayır. İllərdir ki, Teymurun bacıları da, onu sevən keçililər də, ümumilikdə, yüzlərlə şəhidi olan bu xalq tək təsəlli ilə yaşayır. Bu təsəlli şəhidlərimizin Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda həyatlarını itirmələridir. Vətən üçün təbii ki, şəhid olmağa dəyər. Dünən olduğu kimi, hər birimiz bu gün də, sabah da torpaqlarımızın qorunması, müstəqilliyimizin daimiliyi üçün şəhid olmağa hazırıq. Çünki bu müstəqillik bizə şəhidlərimizin qanından ərməğandır, əmanətdir.

***Mətanət MƏMMƏDOVA***

# Darya Qrevtsova: "Müharibə təkrarlana bilər, güc və həqiqət Azərbaycanın tərəfindədir"

*"İrəvanın qarşı çıxacağı heç nə yoxdur, ona görə də rus sülhməramlılarını öz tərəfinə çəkmək üçün əbəs yerə Gümrüdə anti-Rusiya aksiyaları kimi müxtəlif təxribatlar təşkil etməyə çalışır"*

***Rusiya Siyasi Araşdırmalar İnstitutunun direktor müavini Darya Qrevtsova "Caliber" analitik mərkəzinə müsahibəsində maraqlı fikirlər səsləndirib. Müsahibəni oxucularımıza təqdim edirik.***

***- Azərbaycanlı fəalların Laçın yolunda bir aydan çoxdur davam edən aksiyasına münasibətiniz necədir?***

- Azərbaycan ekoloji fəallarının Laçın yolunda etiraz aksiyası ilk növbədə Azərbaycanda vətəndaş cəmiyyətinin birliyinin göstəricisidir, qanunauyğun, səmərəlidir və Bakının bütün çətinliklərə baxmayaraq milli maraqlarını və torpaqlarını müdafiə etməyə hazır olduğunu bütün dünyaya açıq şəkildə göstərir. Bir aydan artıqdır ki, Azərbaycan gəncləri Ermənistanın qanunsuzluqlarına və təbii sərvətlərin istismarına qarşı qəti etirazlarını bildirirlər. Qışın soyuğuna, əlverişsiz hava şəraitinə baxmayaraq, etirazçılar təslim olmurlar və heç şübhəsiz ki, tələblərini təmin edənə qədər orada dayanacaqlar. Bu, həm də Bakının öz ölkəsinin təbii sərvətlərinin talanına son qoymaq və Ermənistana öz yerini göstərmək əzmi və qəti niyyətindən xəbər verir.

Düşünürəm ki, İrəvanın qarşı çıxacağı heç nə yoxdur, ona görə də rus sülhməramlılarını öz tərəfinə çəkmək üçün əbəs yerə Gümrüdə anti-Rusiya aksiyaları kimi müxtəlif təxribatlar təşkil etməyə çalışır. Ancaq gördüyümüz kimi, Rusiya sülhməramlıları neytrallığa riayət edirlər və Ermənistanın tələblərini yerinə yetirmək hüququna malik deyillər, burada onun üçün heç nə parlaq deyil.

Azərbaycan üçün beynəlxalq ictimaiyyət səviyyəsində ciddi dəstəyə nail olmaq üçün hazırda Avropada və Rusiyada dəstəyin artırılması vacibdir. Bakının bütün tərəfdarları və dostları indi Laçın yolunda baş verənlər və Ermənistanla əslində vəziyyətin necə olduğu barədə məlumatları dünya ictimaiyyətinə çatdırmalıdırlar, çünki erməni lobbiçiləri media vasitəsilə tamamilə fərqli, reallığa tam zidd mənzərə yaradırlar. Bu baxımdan Bakı tərəfindən informasiya işinin gücləndirilməsi son dərəcə zəruridir.

***- Ermənistan güclü anti-Rusiya hərəkatı yaratmaqla Moskvadan hansı üstünlükləri axtarır?***



- Anti-Rusiya hərəkatı Moskvaya Ermənistanın Rusiyadan üz döndərib Qərbə doğru getməyə hazır olduğunu göstərmək üçün təşkil olunub. Paşinyan bu yolla Rusiya ilə əməkdaşlığın Ermənistan üçün sərfəli olmadığını Kremlə çatdırmağa çalışır. Ermənistan tərəfi Qərbə stavka edir, baxmayaraq ki, bu həm Rusiyada yaşayan böyük erməni diasporu, həm bu ölkədəki erməni biznesi, həm də bütövlükdə Ermənistan iqtisadiyyatı üçün kifayət qədər təhlükəli siyasətdir. Ermənistanın siyasəti KTMT və Aİİ kimi strukturlarla ünsiyyətdə çətinliklər yaradır ki, bu da Ermənistan iqtisadiyyatı üçün mənfi nəticələrlə doludur. Hesab edirəm ki, bunu Ermənistanın özündə də başa düşürlər, ona görə də İrəvanda nə qədər küssələr də, Ermənistan KTMT-dən və AİI-dən çıxmayacaq, xüsusən indiki vəziyyətdə.



***- Eyni zamanda, Gümrüdəki Rusiya hərbi bazasında erməni revanşistlərinin aksiyası demək olar ki, rəsmi İrəvanın razılığı olmadan baş tutmadı?***

- Əlbəttə. Gümrüdəki aksiya Moskvaya meydan oxuyur və Paşinyanın Laçın yolunda azərbaycanlı fəallara qarşı Rusiya sülhməramlılarının dəstəyinə ümid etdiyini sübut edir. Və çox güman ki, Gümrüdə yaşayan rus sülhməramlılarının ailələrinə RSK-nın Ermənistana dəstək verməli olduğunu göstərmək üçün bu aksiyanı təşkil edən də rəsmi İrəvan olub. Yəni bu, sülhməramlılara təzyiq göstərmək üçün bir növ xüsusi planlaşdırılmış cəhddir. Rusiyanın Laçın yolunda baş verənlərlə bağlı neytral mövqeyi Ermənistanı çox qıcıqlandırır, ona görə də onlar indi Gümrüdə anti-Rusiya hərəkətləri ilə ənənəvi şantaja əl atıblar. Moskvada bu addım Ermənistan tərəfindən xəyanət kimi qiymətləndirilir və müvafiq nəticələr çıxarır.

***- Bakı ilə İrəvan arasında sülh müqaviləsi bağlamaq şansı varmı?***

- Mənə elə gəlir ki, Bakı ilə İrəvan arasında sülh müqaviləsinin imzalanmasını gözləməyə dəyməz. Ola bilsin ki, Paşinyan belə bir müqavilə imzalamaq istəyərdi, amma onun ətrafı buna imkan verməyəcək. Digər tərəfdən, Paşinyan Azərbaycana hansısa güzəştə gedəcəyi təqdirdə devrilməkdən qorxur. O, anlayır ki, Ermənistandakı radikal dairələr onun belə addımını bağışlamayacaqlar. Ona görə də Ermənistanın baş naziri yekun sənədin imzalanması imkanını ləngitməkdə davam edəcək.

***- Sizcə, Ermənistanın Qarabağdan qeyri-qanuni hərbi birləşmələrini çıxarmaq istəmədiyinə görə Azərbaycanın nə etmək hüququ var?***

- Azərbaycan davamlı olaraq beynəlxalq səviyyədə bəyan etməlidir ki, Ermənistan 2020-ci ilin noyabrında imzalanmış üçtərəfli sazişlərə əməl etmir və silahlı birləşmələri Qarabağdan çıxarmır. Lazım gələrsə, güc də tətbiq edə bilər. Ermənistan bilməlidir ki, problemin hərbi yolla həlli yenidən təkrarlana bilər, ona görə ki, güc və həqiqət Azərbaycanın tərəfindədir. Qarabağ Azərbaycan torpağıdır və Ermənistan nəinki onu tamamilə azad etməli, həm də sərhədlərin demarkasiyası və delimitasiyası, yataqların minalardan təmizlənməsi və digər məsələləri həll etməli olacaq.

***Tərcümə - Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb.***

# Erməni siyasi şərhçisi xəbərdarlıq etdi

*Ambarsum Kerobyan: "Biz quru zaman kəsimində hakimiyyətin növbəti axmaqlığını müşahidə edirik"*

Ermənistanın baş naziri Nikol Paşinyanın ölkəsini inkişaf etdirmək və regionda sülhün bərqərar olmasını təmin etmək, bunun üçün qonşuları ilə münasibətlərini normallaşdırması yerinə tamamilə fərqli, yaxud əks siyasət yürütməsi artıq erməni siyasətçiləri və politoloqları tərəfindən də sərt şəkildə tənqidlərə məruz qalmaqdadır. Erməni şərhçiləri hesab edirlər ki, məhz bunun səbəbindən rəsmi Bakının mövqeyi daim İrəvanın mövqeyini qat-qat üstələyir, üstəlik qarşıdakı illərdə Ermənistanın mövcudluğunu sual altında qalması reallığı artmağa başlayır.



## "Bəs Nikol Paşinyan nə ilə cavab verəcək? Davosa getməməsi ilə"

Bu mənada, Ermənistanın tanınmış siyasi şərhçisi Ambarsum Kerobyanın fikirləri diqqət çəkir. Onun sözlərinə görə, Ermənistan özünün mövcudluğu üçün siyasi baxışlarını dəyişdirməlidir. O, buna misal kimi Davos iqtisadi forumunu nümunə gətirib. SİTAT: "Davosda beynəlxalq iqtisadi forumun keçirilməsi bunun üçün əla meydandır. Bununla yanaşı, forumda 50 dövlət və hökumət başçıları, 19 mərkəzi bank rəhbərləri, 30 ticarət nazirləri, 35 XİN başçıları, həmçinin Birləşmiş Millətlər Təşkilatının beynəlxalq təmsilçiləri, Beynəlxalq valyuta fondu və Ümumdünya ticarət təşkilatının nümayəndələri iştirak edirlər. Artıq Azərbaycan Prezidenti oradadır. O, Davosa Dayanıqlı inkişaf həftəsində iştirak etdiyi Əbu-Dabidən gedib. Bəs Nikol Paşinyan nə ilə cavab verəcək? Davosa getməməsi ilə".

## "Sonra isə biz görəcəyik və təəccüb edəcəyik ki, nəyə görə Azərbaycanın dünyadakı mövqeyi bizimkindən daha çox eşidilən və qəbul ediləndir"

Göründüyü kimi, erməni siyasi şərhçisi Ermənistanın baş nazirini fəaliyyətsizlikdə və uğursuzluqda günahlandırır. O, xatırladıb ki, Paşinyan ötən il də Davosa getməyib: "Hökumət səfərin baş tutmaması və səbəbləri barədə heç nə demir. Və biz quru zaman kəsimində hakimiyyətin növbəti axmaqlığını müşahidə edirik ki, onlar dünyada gedən mühüm proseslərdən, dünyanın ən əhəmiyyətli iqtisadi və siyasi mühitindən özlərini izolyasiya edirlər. Sonra isə biz görəcəyik və təəccüb edəcəyik k, nəyə görə Azərbaycanın dünyadakı mövqeyi bizimkindən daha çox eşidilən və qəbul ediləndir", deyə erməni siyasi şərhçisi Ambarsum Kerobyan bildirib.

Beləliklə, faktlar ortadadır və əgər Ermənistan Azərbaycan qarşısında istər diplomatik, istərsə iqtisadi, istərsə də hərbi və s. cəhətlərdən məğlub vəziyyətində qalırsa bu, mövcud Paşinyan iqtidarının məsuliyyətin altına olan reallıqdır. Və bu reallığı biz demirik, elə erməni siyasi ictimaiyyətinin, yaxud siyasi cəmiyyətinin tanınmış nümayəndələri etiraf edirlər. Hər halda, erməni siyasi şərhçisi Kerobyan yuxarıda qeyd edilən fikirlərini səsləndirərkən həqiqəti vurğulayır. O, bu vasitə ilə erməni ictimai rəyinə çatdırmaq istəyir ki, belə davam etsə, daha dəqiq desək, Ermənistanda doğru-dürüst, hadisələri sağlam başla qiymətləndirən hakimiyyət olmasa, bu ölkənin gələcəyi böyük sual altında qalır.

***Rövşən RƏSULOV***

SON SƏHİFƏ

Səs

19 yanvar
2023-cü il

# Köhnə tikili, yoxsa yeni binadan mənzil almaq sərfəlidir?

***Bir çox vaxtlarda mənzil alarkən vətəndaşlar tərəddüd içində qalırlar. Buna görə də, hər hansı bir mənzili satın almadan əvvəl həmişə müqaviləni, inşaatçının sənədlərini yoxlamaq və riskləri qiymətləndirmək lazımdır. Bu məqsədlər üçün daşınmaz əmlak hüquqşünasla iş görmək daha məsləhətlidir.***



ARAŞDIRMA

## Köhə və yeni tikililər alarkən hansı faktorları əsas götürmək lazımdır?

SİA mövzu ilə bağlı araşdırma aparıb. Mənzil alarkən əsas risk fırıldaqçıların tələsinə düşməsinin qarşısını almaq üçün torpaq, kommunikasiyalar, tikinti şəraiti və s. üçün sənədləri yoxlamaq lazımdır. Sənədlərin yoxlanılması bir çox riskləri aradan qaldırır.

Yeni tikililərdən mənzil alarkən ödənişin ödənilməsi ilə mənzilə köçməsi arasında uzun müddət var. Bir evin tikintisinin başlanğıc mərhələsində bir mənzilin alınmasına sərmayə qoyanda, yalnız 2-3 ildən sonra ora köçmək mümkün olur.

Bəzən şirkətlərin razılaşdırılmış müddət ərzində evi təhvil verməyə vaxtı olmur. Bəzən də tikinti prosesinin maliyyələşdirilməsi ilə bağlı problemlər və ya artıq bitmiş evin istismara verilməsində gecikmələr yaranır.

## Mənzilin qiyməti və gözləntiləri

Yeni tikili və köhnə tikili mənzilin alış qiyməti olduqca mürəkkəb parametrdir, çünki onlar adətən tamamilə fərqli evləri fərqli yerlərdə müqayisə edirlər. Nəzərə almaq lazımdır ki, yeni tikililərdə bəzən mənzilə köçənə qədər gözləmək 2-3 il çəkir, bu zaman ərzində tərtibatçı ilə bağlı problemlər səbəbindən mənzilinizi tamamilə itirmək kimi risklər yaranır.

Alqı-satqıdan sonra mənzildə əvvəlcədən qeydiyyada olanlar qeydiyyatdan çıxmaları ilə bağlı öhdəlik götürürlər. Lakin çox zaman şahid oluruq ki, öhdəlik götürülsə də, qeydiyyatdan çıxılmır. Çünki mənzili satan vətəndaşın ya qeydiyyata düşəcək başqa yeri olmur, ya da aldığı növbəti mənzil yeni binada olduğundan və çıxarışı olmadığına görə qeydiyyata düşə bilmir. Ekspertlər bildirir ki, Bakıda sıxlıq çox olduğundan vətəndaşlar daha çox şəhər ətrafında yaşamağa üstünlük verirlər:

Azərbaycan Qiymətləndirmə Cəmiyyətinin sədri, iqtisadçı ekspert Vüqar Oruc: "Adından da göründüyü kimi, köhnə binalarda yerləşən mənzillərlə yeni binalarda tikilən mənzillər arasındakı fərq onların inşa dövrünə görə müəyyənləşir. Köhnə binaların müəyyən yaşı var və həmin yaş onların yeni binalardan daha çox aşağıda olduğunun göstəricisidir. Binalar tikililər ortalama götürdükdə hər il 1,2 faiz aşınma prosesinə məruz qalır. Ona görə də köhnə tikililərdə bu aşınma artıq tikildiyi ilə görə fərqli dövrləri özündə əks elətdirir. Məsələn elə binalar var ki, 50/60 il sakinlərə qulluq göstərir. Həmin binalarda mənzil almaq o qədər də məsləhətli deyil . Yaş etibarilə onların həm fiziki aşınması yüksəkdir, həm də mənəvi aşınmaya məruz qalırlar. Yəni bu onların planlaması, komfort səviyyəsi bu gün üçün uyğun deyil. Tutaq ki kimsə investisiya qoyub mənzil əldə edib, onu kirayə vermək istəyirsə birmənalı şəkildə yeni tikiliyə üz tutmalıdır.

Kirayə qalmaq istəyənlərin çoxusu yeni tikililərə üz tutur. İqtisadi baxımından da onların səmərəliyi yoxdur. Yəni köhnə tikililərdə həm fiziki, həm iqtisadi, həm də mənəvi aşınma mövcuddur.

Yeni tikililər daha çox işıqlı və hündür olur. Köhnə tikililərdə otaqlarda hündürlük 2,5 m-dən 2,8 m-ə qədərdir. Çox hallarda yeni tikililərdə bu 3 metrin üzərindədir. Genişlik, hündürlük, gözəoxşarlıq baxımından da yeni tikililər fərqlənir. Müasir tikililəri daha çox yeni tikinti materiallarından ərsəyə gətirirlər. Həm liftlərin yeni dizayn və texnologiyaya uyğun olması, həm də həyətlərin geniş və asudə vaxtın təşkili üçün müəyyən şəraitə malik olması, eyni zamanda, binalara göstərən qulluq köhnə binalardan fərqlənir. Vətəndaşların bir çoxu yeni binalarda aylıq ödəniş edirlər ki, onlara xidmət göstərilsin. Fərqli cəhətlərdən biri də yeni tikililərdə həyətlərin bağlı olması və mühafizə sistemin olmasıdır.

Bütün bunları nəzərə alaraq müasir insanlar daha çox yeni tikililərdə yaşamaq arzusundadırlar. Məsələn, yeni tikililərdə bir otaqlı 50/60 kv civarındadırsa, köhnələrdə bir otaqlı 22/29 kv-dır. Bu, özü böyük bir fərqdir".

**Havar Şəfiyeva**




# Taksi və taksi sürücüsü adını LƏKƏLƏYƏNLƏR...

***Xəbər verdiyimiz kimi, gecə saatlarında paytaxtda taksi sifariş edən xanıma qarşı sürücüdən əxlaqsız hərəkət olub. Bu barədə görüntülər sosial şəbəkələrdə yayılıb. Məlumata görə, orta yaşlı sürücü "Uber" taksi xidmətində fəaliyyət göstərir. O, gənc xanıma öz dili ilə desək, "yaxınlıq etməyi" təklif edir.***

Ümumiyyətlə, şirkətlər sürücü seçərkən niyə diqqətli olmurlar? Sürücüləri işə qəbul edərkən hansı detallara önəm verilməlidir? SİA mövzu ilə bağlı nəqliyyat eksperti Eldəniz Cəfərovun fikirlərini öyrənib.

Onun sözlərinə görə, Azərbaycanda taksi xidməti liberaldır: "Bazar iqtisadiyyatı, tələb-təklif əsasında və kənar müdaxilələr olmadan formalaşır. Bu da yaxşı haldır.

Bu gün bu liberal taksi fəaliyyətindən sui-istifadə edən bəzi insanlar var. Taksi və taksi sürücüsü adını bu insanlar ləkələyir. Bunun da əsas səbəblərindən biri də ondan ibarətdir ki, bu sahədə kifayət qədər nəzarət həyata keçirilmir, bir qədər özbaşınalıqlar baş verir. Halbuki taksi fəaliyyəti ilə bağlı Nazirlər Kabinetinin reqlamenti və tələbləri var. Həm sürücülərə, həm də taksi fəaliyyətində istifadə olunan minik avtomobillərinə aid olan bu reqlamentlərin sadə şərtlərinə belə əməl olunmur. Şərtlər bunlardan ibarətdir ki, taksi sürücüsünün yaşı 21-dən az və sürücülük təcrübəsi 2 ildən az olmamalıdır.




Həmçinin, taksi fəaliyyətində istifadə olunan avtomobil saz vəziyyətdə olmalıdır, onun üzərində sarı rəngli taksi fənəri olmalıdır. Bu sadə tələbləri belə taksi operatoru şirkətləri həyata keçirmirlər. Əməkdaşlıq etmək üçün vətəndaşla müqavilə və şərt imzalayanda da bu kriteriyalara çox təəssüf ki, taksi şirkətləri diqqət yetirmirlər".

Eldəniz Cəfərov sözlərinə belə davam edib: "Bununla yanaşı, vətəndaşlar da bir qədər taksi xidmətindən istifadə edərkən biraz məlumatsız davranırlar. Belə hərəkətlər olduqda dəqiq bilmirlər ki, hara müraciət etsinlər. Əgər taksi sərnişininin hüququ bir istehlakçı kimi, yeni xidmətdən istifadə edən bir şəxs kimi pozulubsa, məsələn, keyfiyyətsiz taksi xidməti göstərilibsə, daha çox pul tələb edilibsə bu zaman həmin sərnişin bir istehlakçı olaraq istehlak bazarına nəzarət və agentliyə müraciət edə bilər.

Əgər hadisə Bakıda baş veribsə, Bakı Nəqliyyat Agentliyinə də müraciət etməli, şikayətini bildirməlidir. Hadisə Bakıda olmayıbsa, digər şəhərlərdə baş veribsə bu zaman Yerüstü Nəqliyyat Agentliyinə şikayətini bildirə bilər. Əgər sərnişinin hüququ bir vətəndaş kimi pozulubsa, yəni taksi sürücüsü onu təhqir edibsə, nalayiq hərəkətlər edibsə, ifadələr işlədibsə bu zaman da o sərnişinin hüququ bir vətəndaş kimi qorunur. Vətəndaş dərhal 102 Qaynar Xəttinə bu haqda məlumat verməli, daha sonra isə qeydiyyatda olduğu polis idarəsinə gedib orada yazılı qaydada ərizə ilə müraciət etməli, şikayətini bildirməlidir. Yəni bu addımları atmadan, təhqirə məruz qalmış və yaxud da aldadılmış taksi sərnişinləri bunları etmədən həmin nalayiq hərəkətlər etmiş taksi sürücüsünə qarşı hər hansı bir hüquqi iş mümkün deyil. Bunun üçün mütləq qaydada yazılı şikayət ərizəsi olmalıdır".

**Ayşən**

## BAŞSAĞLIĞI

**Bəhruz Quliyev Vahid Abbasa anası Solmaz xanımın vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.**

**Allah rəhmət eləsin.**

## ELAN

**Ukrayna Mülki Müdafiə Universiteti tərəfindən 2005-ci ildə Məmmədov Rəşad Rəşid oğlunun adına verilmiş Dİ-019767 saylı mütəxəssis diplomuna əlavə qiymət cədvəli itdiyi üçün etibarsız sayılır.**

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3600